EVDƏ QAL, SAĞLAM QAL!

Ərdoğan: “Azərbaycanlı qardaşlarımızı tək buraxmadıq, buraxmayacağıq”



Bax 6

Mətbuat tarixinin 145 illiyi



Bax 8



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 123 (6087) 22 iyul 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İlham Əliyev: “Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək”



Bax 2

*Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib*

## ABŞ Konqresindən ermənilərə sarsıdıcı qətnamə zərbəsi: “işğalçısan!”



ABŞ Konqresinin nümayəndələr palatasının məhkəmə məsələləri üzrə komitəsi öz gündəliyinə konqresmenlər Stiv Şabot və Stefan Koenin düzəlişlərini daxil ediblər. Qeyd edilən düzəlişdə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldovanın...

Bax 6

## Azərbaycan Prezidentinin köməkçisi bir sıra ziyalı və ictimai xadimlərlə görüşüb



Bax 6

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Heydər Əliyev Mərkəzində bir sıra ictimai xadim və ziyalılarla görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə koronavirus pandemiyası ilə mübarizə istiqamətində...

## Ronaldo: “Rekordlar həmişə vacibdir, amma...”



Bax 16

## Adil Əliyev: “ABŞ Konqresinin qəbul etdiyi sənəd Ermənistanın işğalçı dövlət olmasını bir daha təsdiq edir”

Bu gündən etibarən Amerika Birləşmiş Ştatları Konqresi rəsmi olaraq Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsi faktını tanıdı. Belə ki, ABŞ Konqresinin Qaydalar komitəsində Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını dövlət səviyyəsində ilk dəfə tanıyan 296 saylı düzəliş qəbul edildi. Düzəlişin mətnində deyilir ki, ABŞ-ın Dövlət katibi Müdafiə katibi ilə birlikdə...



Bax 7

## Həbib Nurmaqomedov döyüşdən imtina etdi

*Mütləq Döyüş Çempionatının (UFC) yüngül çəkidə kəmər sahibi Həbib Nurmaqomedov UFC-253 çempionatında iştirak etməyəcək. TASS xəbər verir ki, bu barədə...*



Bax 16

Vüqar Rəhimzadə: “Azərbaycan mətbuatı dövrün tələblərinə uyğun təkmilləşir, modernləşir, prinsipləri isə dəyişməz qalır”



Bax 7

Azərbaycanın milli mətbuatı böyük və şərəfli yol keçərək, bu gün daha nəhəng uğurlara imza atmaqdadır



Bax 10

Müdafiə Nazirliyi: “Nəcməddin Sadıkov hazırda xidmət yerindədir və vəzifələrini icra edir”



Bax 11

# İlham Əliyev: “Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək”

## *Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib*

***İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma məlumat verdi ki, dövlət tərəfindən bu binada şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 62 mənzil verilib. Bu mənzillərin 42-si Qarabağ müharibəsi əlilləri, 20-si isə şəhid ailələri üçün nəzərdə tutulub.***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Mənzillərin hamısı ikiotaqlıdır.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər





Bu mənzillər də daxil olmaqla indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 8018 mənzil və fərdi ev təqdim olunub. Bu qəbildən olan vətəndaşlarımız təkcə 2019-cu ildə 634 mənzil, 300 fərdi evlə təmin ediliblər. 2020-ci ildə 700 mənzil və 800 fərdi evin verilməsi nəzərdə tutulub. İlin əvvəlindən indiyədək 430 mənzil təqdim olunub.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə 265, 2019-cu ildə 600 müharibə əlili avtomobillə təmin olunub. Bu dəfə təqdim edilən 50 avtomobil də daxil olmaqla 2020-ci ildə bu qəbildən olan insanlara, ümumilikdə 150 avtomobil verilib. İlin sonunadək isə 400 müharibə əlilinin avtomobillə təmin olunması planlaşdırılır. Onu da deyək ki, təqdim olunan avtomobillər yerli istehsal olan “Khazar LX” avtomobilləridir.

Bu dəfə verilən 50 avtomobil də daxil olmaqla indiyədək müharibə əlillərinə 6900 avtomobil təqdim olunub. Dövlətimizin başçısına və birinci xanıma sosial təminat və birdəfəlik ödəmə, 2020-ci ildə məşğulluq tədbirləri, Dövlət Sosial Müdafiə Fondunun fəaliyyəti, sosial xidmətlər və reabilitasiya, şəhid ailələrinə və müharibə əlillərinə qayğı, DOST mərkəzlərinin fəaliyyəti, elektronlaşma və innovativ həllər, pandemiya ilə əlaqədar olaraq məşğulluğa və sosial rifaha dəstək tədbirləri barədə məlumat verildi. Ümumilikdə, Azərbaycanda xüsusi kateqoriyadan olan şəxslər üçün güzəşt və imtiyazların ildən-ilə daha da çoxalması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Şəhid ailələrinə və müharibə əlillərinə müavinət və təqaüdlər 2019-cu ilin aprelində təxminən 100 faiz artıb.

Bu ilin ilk 6 ayında müharibə əlillərinə 1435 reabilitasiya vasitəsi verilib. Hazırda bir çox şəhər və rayonda bərpa və uşaq bərpa mərkəzlərinin inşası və təmiri davam edir. İlin birinci yarısında 1, 2 və 3 saylı DOST mərkəzlərinə 61057 vətəndaş müraciət edib. Vətəndaş məmnunluğu isə 96 faizdir. Tezliklə Binəqədi, Abşeron, Sumqayıt, Quba və Bərdədə DOST mərkəzlərinin açılması nəzərdə tutulur. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdülər.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək”

## *Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib*




Əvvəli Səh. 2

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Əziz dostlar, bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Siz dövlət tərəfindən mənzillərlə təmin edilirsiniz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Mən indi sizin yeni yaşayış yerinizlə tanış olmuşam. Çox gözəl təəssürat bağışlayır, müasir standartlara cavab verən ev tikilibdir, mənzillər də çox genişdir və tam təmirlidir. Yəni, sadəcə olaraq, mebeli gətirib yaşamaq mümkün olacaqdır. Bu, dövlətin sizə növbəti diqqətinin təzahürüdür.

Bilirsiniz ki, şəhid ailələrinin, müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir və son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir. Eyni zamanda, sizin üçün 400 avtomobil də nəzərdə tutulur və beləliklə, biz bu il bu sahədə ən böyük göstəriciyə nail ola bilmişik.

Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni, bu, onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır. Mən istəyirəm ki, biz bu proqramı tezliklə başa çatdıraq və buna nail olacağıq. Sirr deyil ki, bu məqsədlər üçün böyük vəsait nəzərdə tutulur və bildiyiniz kimi, dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir. Bu sosial xərclərin içində şəhid ailələrini, müharibə əlillərini, müharibə veteranlarını, məcburi köçkünləri əhatə edən çox böyük proqramlar icra olunur.

### *“Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə, bu il bu sahədə də rekord göstərici gözlənilir”*



Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə, bu il bu sahədə də rekord göstərici gözlənilir. Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək. Bu, bir daha onu göstərir ki, biz bu məqsədlər üçün istənilən xərclərə gedirik, bunu təmin edirik və şadam ki, mənim çağırışımdan sonra özəl sektor da bu işlərə qoşulub. Bildiyiniz kimi, özəl şirkət - “Paşa Holdinq” tərəfindən onun vəsaiti hesabına Qobu qəsəbəsində məcburi köçkünlər üçün 3 şəhərcik inşa edilibdir və orada artıq 4 minə yaxın köçkün ailəsi məskunlaşıb. Eyni zamanda, şəhid ailələri, müharibə əlilləri üçün evlərin tikilməsinin, əlbəttə ki, böyük hissəsini dövlət öz üzərinə götürübdür. Ancaq özəl sektor da artıq fəaldır və bu il “Kapital Bank” 68 mənzili öz vəsaiti hesabına bu kateqoriyadan olan insanlara təqdim edib. Bu, həm ölkəmizdə mövcud olan vətəndaş həmrəyliyinin, dövlət siyasətinin təzahürüdür, dövlət və özəl sektor tərəfindən bu kateqoriyadan olan insanlara qayğının əlamətidir və eyni zamanda, ölkəmizin gücünü göstərir. Çünki siyasət düz, niyyət xoş ola bilər, amma əgər bunu icra etmək üçün imkan yoxdursa, onda niyyət elə niyyət kimi qalacaq.

Biz son illər ərzində iqtisadi sahədə o qədər böyük potensial yaratmışıq ki, bu gün bu işləri görə bilirik. Əgər bu potensial olmasaydı, biz bu işləri nəyin hesabına görə bilərdik, kim bizə kömək göstərərdi? Təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində bizim belə imkanlarımız yox idi və məhz buna görə köçkünlər çadırlarda yaşayırdı, şəhid ailələri üçün evlərin təqdim edilməsi, ümumiyyətlə, mümkün deyildi. Bununla paralel olaraq, bizim güclü sosial siyasətimiz var. Çünki iqtisadi güc, ilk növbədə, ona görə lazımdır ki, ölkə daha da qüdrətli olsun, öz maraqlarını təmin etsin və insanlar daha da yaxşı yaşasınlar.

Bu gün mənə təqdim edilən məlumat onu göstərir ki, sosial sahədə çox böyük işlər görülür. Keçən il çox böyük işlər görülübdür və bildiyiniz kimi, şəhid ailələrinin müavinəti 20 faiz artırılıb - 250 manatdan 300 manata çatdırılıb. Köçkünlər üçün müavinətlər 50 faiz artırılıb, bəzi müavinətlər 100 faiz artırılıb. Keçən il insanların sosial problemlərinin həlli üçün bir neçə milyard manat vəsait xərclənib. Bu il pandemiya dövründə təqribən 5 milyona yaxın insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub. Bütün bunlar üçün bizim resurslarımız, vəsaitimiz gedir. Bizim iqtisadi potensialımız olmasa, bunu necə təmin edə bilərik? Pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən çox böyük dəstək göstərilir, yeni xəstəxanalar, modul tipli xəstəxanalar tikilir. Xəstələr dərmanlarla təchiz edilir. Biz bir neçə xarici ölkədən mütəxəssislər, həkimlər cəlb etmişik. Hər belə addım pul tələb edir. Biz bunu edirik, çünki bu, bizim borcumuzdur. Ona görə edə bilirik ki, bizim imkanımız var. İmkanı da biz öz işimizlə, məqsədyönlü fəaliyyətimizlə yaradırıq. Həm xarici siyasətimiz, həm daxili siyasətimiz bir məqsədi güdməlidir ki, ölkə daha da qüdrətli olsun, insanlar daha da yaxşı yaşasınlar.

Pensiyaların artırılması - bu il pensiyalar orta hesabla 27 faiz, orta əməkhaqqı 25 faiz artıb. Bütün bunlar bizim siyasətimizi göstərir. Əlbəttə ki, sosial sahədə digər önəmli layihələr də icra edilir. Özünüməşğulluq proqramı - insanlara imkanlar yaradılır ki, onlar öz ailələrini dolandıra bilsinlər və dövlətin yardımından asılı olmasınlar.

Ardı Səh. 4

# İlham Əliyev: "Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək"

## *Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib*

Əvvəli Səh. 3

Bu il bu işlərə 12 min insan cəlb olunacaq, 90 min insan ödənişli ictimai iş yerləri ilə təmin ediləcək. Mən açıq deyirəm ki, ictimai iş yerləri o iş yerləridir ki, onlarsız da ölkə inkişaf edə bilər. Biz, sadəcə olaraq, insanlar üçün şərait yaradırıq ki, pul qazansınlar və heç olmasa, aztəminatlı təbəqə minimum əməkhaqqı səviyyəsində vəsait əldə etsin.

Beləliklə, bütün bu və digər sosial layihələr, DOST xidmətinin fəaliyyətə başlaması həm ideya, innovasiya, siyasət, eyni zamanda, vəsait tələb edir. Sirr deyil ki, bizim vəsaitimizin əsas hissəsi enerji sektorundan gəlir. Bu da Heydər Əliyev neft siyasətinin uğurlu icrası nəticəsində mümkün olubdur. Təsəvvür edin, əgər bizim neft-qaz kəmərlərimiz olmasaydı və xarici şirkətlər Azərbaycan neft-qaz sənayesinə milyardlarla dollar pul qoymasaydılar, biz indi nəyin hesabına yaşayacaqdıq? Bu səviyyədə yaşaya bilərdikmi? Əlbəttə ki, yox. Öz haqlı işimizi beynəlxalq arenada bu dərəcədə müdafiə edə bilərdikmi? Əlbəttə ki, yox. Ona görə Ulu Öndərin xalq qarşısında xidmətləri arasında bu sahə xüsusi yer tutur. Biz məhz bunun hesabına bu gün valyuta ehtiyatları yaratmışıq, iqtisadiyyatın digər sektorlarına, infrastruktura investisiya qoyuruq. Biznes, özəl sektor buna görə inkişaf edir. Hər kəs bunu bilməlidir ki, bu gün və bundan sonrakı illərdə qeyri-neft sektoru nə qədər inkişaf edirsə-etsin, bizim əsas gəlir mənbəyimiz enerji sektorudur - neft və bu gün qaz. Ona görə bu, bizim üçün strateji əhəmiyyətli sahədir. Əlbəttə, mən çalışıram və bundan sonra da çalışacağam ki, bu sahə inkişaf etsin. Biz yeni neft kontraktlarının, yeni layihələrin işə düşməsi nəticəsində uzunmüddətli inkişafımızı təmin edəcəyik.

Ona görə neft hasilatı, qaz hasilatı, dünya bazarlarında neftin qiyməti bizim üçün xüsusi əhəmiyyət daşıyan bir məsələdir. Təkcə bizim üçün yox, neft, qaz hasil edən, ixrac edən bütün ölkələr üçün əhəmiyyətlidir. Çünki bu ölkələrin iqtisadiyyatı, artıq oturuşmuş iqtisadiyyatlar bunun üzərində qurulubdur. Ona görə neftin qiymətinin bir dollar aşağı düşməsi milyonlarla dollar itki deməkdir. Baxın, bu il neftin qiyməti bir neçə dəfə düşüb və bizim gəlirlərimiz buna uyğun olaraq azalıb, ancaq bir dənə də olsun sosial layihə ixtisar edilməyib. Əksinə, pandemiya dövründə maksimum nə mümkünsə etmişik, edirik və edəcəyik.

Bu çətin pandemiya dövründə dünyada böhran davam edir. Dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Onu da bildirməliyəm ki, Azərbaycan bu siyahıda yoxdur, biz öz hesabımıza yaşayırıq. Neftin qiyməti kəskin aşağı düşür, buna baxmayaraq, biz bu işləri görürük. Budur siyasət. Bu, bizim şəhid ailələrinə, şəhidlərin ruhuna olan hörmətimizdir. Amma əfsuslar olsun, ölkə daxilində elələri tapılır ki, neftin qiymətinin düşməsinə sevinirlər. Buna kim sevinir? Mən demişəm, bir daha demək istəyirəm

> *"Bu gün özünü müxalifət adlandıran bu mənfur dəstə nə istəyir? İstəyir ki, Azərbaycan onların dövründəki kimi Ermənistan qarşısında aciz qalsın, gücsüz qalsın, silahsız qalsın. Azərbaycanı torpaqlar əldən gedən dövrdəki hala salmaq istəyirlər. Ona görə Azərbaycan xalqı hər şeyi bilməlidir"*



ki, qoy, Azərbaycan xalqı bunu bilsin və unutmasın. Birincisi, Ermənistan sevinir, çünki başa düşürlər ki, əgər bu tənəzzül davamlı olarsa, Azərbaycanın gəlirləri azalacaq, ona görə öz xərclərini azaldacaq, lazımi həcmdə silah-sursat ala bilməyəcək və beləliklə, zəifləyəcək və Ermənistan da bundan faydalanacaq. Buna Ermənistan sevinir, bu, təbiidir. Amma başadüşülən deyil ki, buna Azərbaycanın bəzi vətəndaşları, yaxud da ki, özlərini Azərbaycan vətəndaşı sayanlar sevinir. Bu məlumat artıq ictimailəşib. Özünü milli şura adlandıran, əslində, antimilli qruplaşma kimi fəaliyyət göstərən dəstə görün necə sevinirdi ki, neftin qiyməti 14 dollara düşüb. Bir-birinə "şad xəbər" verirlər, təbrik edirlər və bəziləri deyir ki, hələ tələsməyin, hələ düşəcək, o vaxt sevinəcəyik. Bu, nə deməkdir?! O deməkdir ki, bizim gəlirlərimiz azalacaq, lazımi sayda, həcmdə silah ala bilməyəcəyik. Özü də bu gün artıq dünya silah bazarı çox bahalı bir sahədir və hər bir silahın alınması çox böyük vəsait tələb edir, xüsusilə müasir dövrdə. Bu gün, əgər belə demək mümkündürsə, ağıllı silahlar üstünlüyü təmin edir. O silahlar ki, onların qiyməti çox bahadır və biz onları alırıq, alacağıq. Bizim imkanımız olmasa, onları ala biləcəyikmi? Yəni, bu gün özünü müxalifət adlandıran bu mənfur dəstə nə istəyir? İstəyir ki, Azərbaycan onların dövründəki kimi Ermənistan qarşısında aciz qalsın, gücsüz qalsın, silahsız qalsın. Azərbaycanı torpaqlar əldən gedən dövrdəki hala salmaq istəyirlər. Ona görə Azərbaycan xalqı hər şeyi bilməlidir. Mən deyəndə ki, bu, düşmənçilikdir, bu, müxalifətçilik deyil, - müxalifətçilik dövlətə qarşı ola bilməz, - mən tam haqlıyam. Bizi yenə də o qara günlərə qaytarmaq istəyirlər. O günlərə ki, biz o vaxt torpaqlarımızı itirmişik, məhz Azərbaycan Xalq Cəbhəsinin mənfur hakimiyyətinin yarıtmaz fəaliyyəti, satqınlığı nəticəsində torpaqlarımızı itirmişik. Onların hakimiyyət uğrunda gedən mübarizəsi nəticəsində torpaqlarımızı itirmişik. O vaxt torpaqlar əldən gedirdi, amma Azərbaycan Xalq Cəbhəsi burada vətəndaş müharibəsinə start vermişdi, qardaş qanı axıdılırdı. Ermənilər bizim şəhərlərimizi bombalayırdılar, şəhərlərimizi tuturdular, Kəlbəcəri işğal etmişdilər, onlar isə Gəncəni bombalayırdılar, öz şəhərlərini bombalayırdılar, Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu, xəyanət deyil, bəs nədir?! Şuşa kimi alınmaz qalanı ermənilərə satan satqınlar xəyanətkar deyil, bəs nədir?! Siz bunları yaxşı bilirsiniz. Məhz o dövrdə siz yaxınlarınızı itirmisiniz, öz sağlamlığınızı itirmisiniz, hər şeyi yaxşı xatırlayırsınız, o qara günləri xatırlayırsınız. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan müstəqil ölkə kimi qalacaqdı-qalmayacaqdı, bu, hələ böyük sualdır. Amma bizi yenə də o dövrə qaytarmaq istəyirlər. Bax, budur neftin qiymətinin düşməsinə sevinənlər. Mən demişəm, onlar ermənilərdən də pisdirlər.

Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın hərbi təxribatı nəticəsində şəhidlərimiz olubdur, qan tökülüb, o cümlədən mülki vətəndaş həlak olub. Ermənistan ordusu Tovuz istiqamətində bizim mövqelərimizi, torpaqlarımızın bir hissəsini zəbt etmək üçün namərdcəsinə, qəflətən artilleriya silahlarında hücum təşkil edib və bunun nəticəsində hərbçilərimiz həlak olub, yaralanıb. Dərhal lazımi tədbirlər görülüb və qisas əməliyyatı keçirilib. Qisas əməliyyatı nəticəsində onlarla düşmən, onların texnikası məhv edilib. Yəqin ki, siz də o videogörüntüləri internetdə görmüsünüz, Azərbaycan Ordusu sərrast atəşlə, dəqiqliklə Ermənistanın dayaq məntəqələrini, idarəetmə məntəqələrini və digər hərbi infrastrukturunu necə məhv edir. Biz bunu nəyin hesabına edirik? Müasir silahlar hesabına. Bu silahlar Azərbaycanda istehsal olunmur. Bu silahların qiyməti çox yüksəkdir. Bizim maddi imkanlarımız olmasa, biz onu edə bilməzdik. Bu gün Azərbaycan Xalq Cəbhəsinin gözündə qalan arzusu budur ki, imkanımız olmasın, Azərbaycan yenə də torpaqlar itirsin.

Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. İnsanların coşqusu və ehtirasları çox müsbət istiqamətdə gedirdi. Mən dərhal göstəriş verdim ki, hüquq-mühafizə orqanları, ilk növbədə, Daxili İşlər Nazirliyi asayişi qorumaq üçün bütün tədbirləri görsün. Yəqin, internetdə görmüsünüz ki, insanlarla bərabər, polis əməkdaşları da gedirdilər. Çünki insanlar avtomobil yolu ilə gedirdilər, orada hansısa qəza baş verə bilərdi. Çox nizamlı şəkildə hara gəldilər? Şəhidlər xiyabanına, ora da gəlməli idilər. Orada öz dəstəklərini ifadə etdilər. Ancaq bəzi çirkin ünsürlər, Azərbaycan Xalq Cəbhəsinin üzvləri bundan istifadə edib iğtişaş yaratmağa cəhd etdilər, parlament binasına soxuldular, orada dağıntılar etdilər. Parlament binasının əldə edilmiş qələbə ilə nə bağlantısı var? Bir də ki, bu, qələbədir, bunu hamı etiraf edir. Ermənistan artıq bunu etiraf etməyə məcburdur. Biz bu günlərdə böyük xarici dəstək də görmüşük. Yəni, xalqın iradəsi öz yerini tapmışdır, bunu bayram etmək lazımdır. Amma girib parlamentin binasının divarlarını, kabinetlərini dağıtmaq, sökmək nəyə lazım idi?! Üçüncü mərtəbəyə qədər qalxmışdılar. Kabinetlərin qapılarını, şüşələrini sındırırdılar. Sən gəlmisən burada ali qanunvericilik orqanını dağıtmağa? Bunu kim edə bilər? Düşmən, başqa heç kim.

Öz xalqına, öz Vətəninə bağlı olan adam müharibə gedən vaxtda bunu edər? İndi istintaq gedir. Mən istintaqı qabaqlamaq istəmirəm. Heç müdaxilə etmək fikrim də yoxdur. Amma hər şey göz qabağındadır. İndi bəzi görüntülər də ictimailəşdirilib. Görün, bu adamlar hansı miskin və aciz gündədirlər. Hanı bunların "hünəri", hanı bunların "qəhrəmanlığı"? İndi qanun qarşısında cavab verəcəklər. Mən demişəm, bir daha da demək istəyirəm, bu cinayətləri, bu əməlləri törədən heç bir adam məsuliyyətdən qaça bilməyəcək. Bir-bir hamısını tapacağıq və bir-bir tapırıq. Son nəfərinə qədər tapıb məsuliyyətə cəlb edəcəyik. Qoy, xalq onları tanısın. Qoy, onların valideynləri utansınlar - onlar kimi böyüdüblər? Hansı manqurtları böyüdüblər? Ona görə ictimaiyyət bunu bilməlidir. Təkcə onlar yox, onların valideynləri də məsuliyyət daşıyırlar. Təbii ki, bu, mənəvi məsuliyyətdir. Amma qoy, valideynləri də utansınlar. Bu, nəyi xatırladır? Yəqin ki, siz də xatırlayırsınız, 1992-ci ili. Azərbaycan Xalq Cəbhəsinin hərbi çevrilişi parlamentin binasının zəbt edilməsi ilə başlamışdı və orada da başa çatmışdı. O kadrlar da var, yəqin ki, televiziyalar onu göstərəcəklər. O vaxt Azərbaycan hakimiyyəti bunun qabağında dura bilmədi. Çünki cəsarət, qətiyyət göstərmədi, iradə və ən önəmlisi, xalqın dəstəyi yox idi. Ona görə orada bir dəstə adam yığışan kimi, oraya basqın edən kimi hakimiyyət tamamilə dağıldı.

Ardı Səh. 5

# İlham Əliyev: “Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək”

## *Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib*

Əvvəli Səh. 4

Hərə bir tərəfə çəkildi, gizləndi, biri evində, biri harada. Hakimiyyətsizlik hökm sürürdü. Eyni ssenari üzrə bunlar bu dəfə də bunu etməyə çalışırdılar. Eyni ssenari üzrə, parlamentin binasını zəbt etmək, orada öz hakimiyyətini elan etmək. İndi istintaq materialları bunu artıq göstərir. Yenə də deyirəm, qabaqlamaq istəmirəm, Azərbaycan xalqı hər şeyi biləcək. Faktiki olaraq hakimiyyəti qanunsuz yollarla zəbt etmək istəyirdilər. Amma mən dedim, onların fikri o illərə getməsin. İndi Azərbaycan o Azərbaycan deyil. Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü iqtidarı var, Azərbaycan iqtidarının güclü iradəsi var və ən önəmlisi xalqın dəstəyi var. Mən bu günlərdə hər gün bəlkə də minlərlə məktub alıram. O məktublarda vətəndaşlar öz dəstəyini ifadə edirlər, həmrəyik ifadə edirlər, mənim çıxışımdan sonra orduda xidmət etmək istəyirlər. Mən demişdim, orada şüşələri qıranlar getsinlər, yazılsınlar orduya. O gün cəmi 150 nəfər könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin məntəqələrinə gəlmişdir. Amma mənim sözlərimdən sonra heç bir həftə keçməyib, artıq əlli minə yaxın insan yazılıb. Əlli minə yaxın Azərbaycan vətəndaşı, - onların mütləq əksəriyyəti gənclərdir, - Vətəni qorumaq üçün artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adlarını, ünvanlarını veriblər. Mən onlara təşəkkür edirəm. Bax, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci. Parlamentin şüşələrini, qapılarını qıran yox. Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci.

Mən bir daha onlara, onların valideynlərinə təşəkkürümü bildirirəm. Onlar xalqımız, dövlətimiz üçün dəyərli övladlar yetişdiriblər. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Azərbaycan Ordusu tam komplektləşdirilib və əgər əlavə canlı qüvvə lazım olarsa, əlbəttə ki, biz bundan istifadə edəcəyik.

Səfərbərliyin elan edilməsinə hələ ki, heç bir ehtiyac yoxdur. Əgər lazım gələrsə, bu da olacaq. Mən demişəm, bir daha demək istəyirəm, - çox da dərinə getmək istəmirəm, - biz bilirik, nə vaxt, necə, nəyi etmək lazımdır. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Bizim siyasətimiz ədalətli siyasətdir. Bizim siyasətimiz həm beynəlxalq hüquqa, tarixi ədalətə söykənir və biz istədiyimizə nail olacağıq.

Mən bir məsələyə də toxunmaq istəyirəm. İstəyirəm ki, Azərbaycan xalqı bunu bilsin. İndi əlbəttə ki, məlumat məkanı çox genişdir. Biz bu günlərdə heç vaxt olmadığı qədər, - nə 1990-cı illərin əvvəllərində ki, müharibə gedirdi, nə də başqa dövrdə, - çox güclü beynəlxalq dəstək gördük. Təbii ki, ilk dəstək, ilk qardaşlıq addımı qardaş Türkiyədən gəldi. Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan birmənalı şəkildə Azərbaycanı dəstəklədi, bildirdi ki, Azərbaycanın yanındadır. Bildirdi ki, Azərbaycan və Türkiyə, iki qardaş ölkə hər zaman bir yerdə olacaqlar. Bu dəstəyə görə mən öz qardaşıma dərin təşəkkürümü bildirmək istəyirəm. Bu günlərdə biz daim təmasdayıq. Mənə telefonla zəng edib, dəstək ifadə edib, şəhidlərimizin həlak olması ilə əlaqədar başsağlığı verib. Deyib ki, biz sona qədər bir yerdəyik.

Mən də hər zaman dostum, qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana böyük hörmət göstərmişəm. Türkiyə xalqına mənim məhəbbətim heç kəs üçün sirr deyil. Dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkələr yoxdur. Bu, həm tarixə, bizim ortaq, etnik köklərə, həm də bugünkü siyasətə əsaslanır. Eyni zamanda, Türkiyənin digər yüksək vəzifəli rəsmi şəxsləri, o cümlədən Müdafiə naziri, Xarici İşlər naziri, parlament üzvləri, ictimai xadimlər Azərbaycana birmənalı dəstək göstərmişlər.

Bir çox ölkələr fərdi qaydada rəsmi şəxslər səviyyəsində dəstək göstərmişlər. Ona görə də mən onlara minnətdaram. Beynəlxalq təşkilatlar, ilk növbədə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Azərbaycana dəstək göstərmişdir. Bu təşkilatda beş ölkə fəaliyyət göstərir - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan. Onlar bu təşkilatın üzvləridir və Azərbaycana birmənalı dəstək göstərmişlər. Mən də cavab məktublarımda bu ölkələrin dövlət başçılarına öz təşəkkürümü bildirmişəm. Bu məktublar mətbuatda dərc edilib.

İslam Əməkdaşlıq Təşkilatı bizə birmənalı dəstək oldu. Orada 57 ölkə birləşir. Bu, həm haqq-ədalətə verilən, həm də Azərbaycana verilən dəstəkdir. Çünki siz də bilirsiniz, mən İslam həmrəyliyinin gücləndirilməsi üçün nə qədər səylər göstərirəm. Azərbaycan nə qədər çalışır ki, bəzi İslam ölkələri arasında olan hansısa ixtilaflar aradan qaldırılsın, yaxud da yumşalsın ki, ilk növbədə, biz öz evimizdə qayda-qanun, həmrəylik, dostluq yaradaq. Biz gərək, ilk növbədə, müsəlman aləmində birlik yaradaq. Çünki əgər burada birlik olmasa, onda bizim taleyimiz necə olacaq? Müsəlman ölkələri bunu qiymətləndirir. Bütün ölkələr - 57 müsəlman ölkəsi bizi dəstəklədi. Baxmayaraq ki, bu ölkələrin bəzilərində erməni icmaları kifayət qədər böyük imkanlara malikdir. Baxmayaraq, bu ölkələrdə erməni rəsmi orqanları, onların səfirlikləri gecə-gündüz çalışırlar ki, bəzi müsəlman ölkələrini öz tərəfinə çəksinlər. Biz bunu görürük. Bəzən səfərlər edirlər. Bəzən dövlət başçısı səviyyəsində müsəlman ölkələrinə gedirlər. Biz hər şeyi izləyirik, baxırıq, baxmalıyıq. Bəzən, bəzi müsəlman ölkələrinin dövlət başçıları Ermənistana rəsmi səfərlər edirlər. Əlbəttə ki, bu, bizi haqlı olaraq narahat edir. Bunu açıq şəkildə deyirik, həmrəylik sözdə yox, əməldə olmalıdır.



Müsəlman məscidlərini dağıdan Ermənistanla hansı əlaqələr ola bilər? Açın baxın internetdə, görün Ağdam məscidi nə gündədir, Şuşa məscidi nə gündədir, digər şəhərlərdəki məscidlər nə gündədir, onları söküblər. Bu azmış kimi, ermənilər orada heyvan saxlayırlar, hətta bizim müqəddəs ocaqlarımızı təhqir edirlər. Kim edir bunu? Ermənistan. Bu məscidlər təkcə bizim deyil, bütün müsəlman aləminə məxsusdur. Mən sual verirəm, necə ola bilər ki, belə çirkin əməllər törədən bir ölkə ilə hansısa əlaqələr olsun, hansısa dostluq haqqında danışsınlar? Hansı dostluq ola bilər? Ona görə, mən bir daha demək istəyirəm, Ermənistan çalışır ki, onları öz tərəfinə çəksin. Ancaq, ilk növbədə, o ölkələrin xalqları buna imkan verməyəcəklər və verməməlidirlər. Əgər görsələr ki, bu ölkələrin hakimiyyəti öz dini mənsubiyyətini ancaq dildə ifadə edir, o ölkələrin vətəndaşları öz sözünü deməlidir, Azərbaycanla həmrəy olmalıdır. Necə ki, biz bütün müsəlman ölkələri ilə həmrəyik, onlardan da eyni münasibət gözləyirik. Xüsusilə belə həssas günlərdə, həssas məsələdə ki, Ermənistan bizə hücum edib, bizim mövqelərimizi zəbt etmək istəyir, bizim hərbçilərimizi, mülki vətəndaşları öldürüb, kəndlərimizi dağıdıb. Mən dünən Sərəncam imzaladım, Tovuz rayonunda zərər çəkmiş bütün binalar, - indi komissiya təşkil olunub, - inventarlaşdırılacaq və qısa müddət ərzində biz bütün evləri bərpa edəcəyik. Amma insanların həyatını bərpa etmək olarmı? 76 yaşlı ağsaqqalın həyatını bərpa etmək olarmı? Bunu kim edib? Ermənistan edib. Əfsuslar olsun ki, özünü bizə dost kimi təqdim etmək istəyən bəzi ölkələr onlara bu mərmiləri veriblər ki, Azərbaycan əsgərini, Azərbaycan vətəndaşını, uşağı, qocanı Xocalıdakı kimi öldürsünlər. O vaxt bizim gücümüz yox idi. Bizim deyəndə, əvvəlki iqtidarın, hansı ki, bu faciə vaxtı Azərbaycana rəhbərlik edirdi. Açıq danışmalıyıq, bu, belədir. Azərbaycan xalqı, Azərbaycan vətəndaşları hər şeyi bilməlidir. Ona görə İslam Əməkdaşlıq Təşkilatının bu qərarını biz çox yüksək qiymətləndiririk. Qoşulmama Hərəkatı da, - burada 120 ölkə cəmləşir, - birmənalı şəkildə Azərbaycanı dəstəklədi.

Mən sizin və Azərbaycan xalqının diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. Yəqin siz eşitmişiniz ki, biz Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qaçdılar ki, bunları müdafiə eləsin. Tələb edirdilər ki, KTMT Azərbaycanı qınayan bəyanat versin. Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi. Sadəcə olaraq, bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verildi, vəssalam. Ancaq bildirməliyəm ki, KTMT-ya 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, KTMT-da üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni, altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər. Bu, bir. İkincisi, qoy Ermənistanın qorxaq rəhbərliyi yadına salsın ki, qaçıb yardım almaq istədiyi KTMT-nı necə təhqir etmişdi, heç bir başqa ölkə ilə razılaşma aparmadan onun baş katibini həbs eləmişdi. Belarus nümayəndəsinin KTMT-ya yeni baş katib təyin olunmasının əleyhinə çıxmışdı. Bir il ona imkan vermədi ki, işə başlasın. Bəs nə oldu, o vaxt KTMT pis idi, sən onu təhqir edirdin, indi qaçıb onun ətəyindən yapışırsan. Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq.

Beləliklə, bütün bu məsələlər bir daha onu göstərir ki, bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq. Bizim üçün bir nömrəli milli məsələ - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm - beynəlxalq təşkilatlarda, beynəlxalq kürsülərdən, ölkə daxilində. Çox da təkrarlamaq istəmirəm, amma bir şeyi istəyirəm Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil. Çünki bu, müvəqqəti olacaq. Yarımçıq, sadəcə, mərhələ ola bilər. Ancaq məsələnin həlli tam olmalıdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim və bu, siyasətimin bir hissəsidir, o hissəsi ki, bu haqda hələ ki, açıq danışmaq olar.

Mənim fikrim nədən ibarətdir, siz hamınız yaxşı bilirsiniz. Azərbaycan öz tarixi keçmişinə sadiq olan ölkədir və tarixi yaxşı bilirik. Gələcəyi necə görmək istəyirik, onu da bilirik və Azərbaycan xalqı da bilir. Ona görə, ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb, olmamalıdır və olmayacaq. Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq. İnşallah, ondan sonra orada sizinlə bir yerdə görüşüb bu günləri də xatırlayacağıq. Bir daha sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

Şəhid Əli Həsənovun həyat yoldaşı Arifə Həsənova çıxış edərək dedi:

-Mən şəhid Həsənov Əli İsmayıl oğlunun həyat yoldaşıyam.

Cənab Prezident, hörmətli Mehriban xanım, Siz həmişə şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə qayğı ilə yanaşmışınız. Buna görə bizim ailəmiz və qayğı göstərdiyiniz insanlar adından Sizə böyük minnətdarlığımızı bildiririk. Ötən il bizə 11 min manat məbləğində birdəfəlik ödəmə verdiyinizə görə Sizə təşəkkür edirəm. İndi isə bu gözəl binada bizə mənzil verdiyiniz, biz şəhid ailələrini və Qarabağ müharibəsi əlillərini həmişə diqqətinizdə saxladığınız üçün təşəkkür edirik. Hər şeyə görə çox sağ olun, hər şeyə görə Sizə minnətdarıq. Allah Sizə cansağlığı versin.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

## Azərbaycan Prezidentinin köməkçisi bir sıra ziyalı və ictimai xadimlərlə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Heydər Əliyev Mərkəzində bir sıra ictimai xadim və ziyalılarla görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə koronavirus pandemiyası ilə mübarizə istiqamətində ölkəmizdə görülən işlər və bundan sonra atılacaq addımlar, eyni zamanda, son günlər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətinə baş vermiş hadisələr və digər məsələlər ətrafında müzakirələr olub.



Azərbaycan Prezidentinin köməkçisi ötən dövr ərzində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tövsiyə və tapşırıqlarına uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahda aparılmış müzakirələr və görülən işlər barədə ətraflı məlumat verib. Bildirib ki, atılan məqsədyönlü və ardıcıl addımlar nəticəsində yoluxmaların sayının azalmasına nail olunub. Xarici ölkələrdən cəlb olunan mütəxəssislər virusa yoluxmuş xəstələrin müalicəsində azərbaycanlı həmkarlarına böyük dəstək göstərirlər və artıq müsbət nəticələr əldə etmək mümkün olur.

Anar Ələkbərov görülən işlərdə dövlətin çağırışlarına dərhal cavab verən, dəstək göstərən özəl sektorun rolunu da xüsusi qeyd edib. Bildirib ki, xarici mütəxəssislər də ölkəmizdə bu işin daha yaxşı və düzgün aparıldığını dəfələrlə vurğulayıblar. Bütün bunlar ölkəmizin tezliklə bu ciddi problemin öhdəsindən gələcəyini deməyə əsas verir. Bunun üçün daha həmrəy olmalı və vətəndaş kimi məsuliyyətimizi artırmalıyıq. Xüsusi karantin rejimində proseslərin mərhələli şəkildə yumşaldılmasından danışan Anar Ələkbərov addımların düşünülmüş şəkildə atıldığını, hazırkı dövrdə pandemiyanın yenidən sürətlə yayılması təhlükəsinin aradan qaldırılması üçün vətəndaşların dövlətlə həmrəylik nümayiş etdirməsinin və medianın, ictimaiyyət nümayəndələrinin bu sahədə təbliğatla bağlı dəstəyinin vacibliyini vurğulayıb.

Görüşdə, eyni zamanda, son günlər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hadisələr müzakirə olunub və işğalçı Ermənistanın növbəti təxribatının fonunda insanların yüksək vətənpərvərlik və mübarizlik əhval-ruhiyyəsi nümayiş etdirdiyi bildirilib. Qeyd olunub ki, həmrəylik təkcə Azərbaycan daxilində deyil, dünyanın müxtəlif ölkələrində yaşanır. Müxtəlif dövlətlərdə yaşayan azərbaycanlılar Azərbaycanın haqq səsini çatdırmaq üçün birləşiblər. Amma bununla yanaşı, sosial şəbəkələrdə insanlara qorxu, panika hissini aşılamağa çalışanlar da var. Belə xoşagəlməz halların qarşısını almaq üçün isə imkanlarımızı səfərbər etməliyik. Bu istiqamətdə ictimai həyatda fəal olan şəxslərin fikirlərinin, təkliflərinin əhəmiyyətli olduğu bildirilib.

Görüşdə çıxış edən yazıcılar, şəhidlərin ailə üzvləri, jurnalistlər, deputatlar, hüquqşünaslar və incəsənət xadimləri belə bir formatda görüşün təşkilinə görə minnətdarlıq ediblər. İctimai xadimlər pandemiya dövründə vətəndaşları narahat edən məsələlərə toxunub, öz fikirlərini və təkliflərini bildiriblər.

Çıxış edənlər sosial mediada aparılan təxribatlardan danışıblar və Azərbaycanın müharibə şəraitində olan bir dövlət kimi bunun qarşısını almaq üçün səmərəli mexanizmlər təbiq etməli olduğunu vurğulayıblar.

Görüşdə ictimai xadimlərin suallarını cavablandıran Azərbaycan Prezidentinin köməkçisi səslənən fikirlərin əhəmiyyətini qeyd edib və təkliflərin nəzərə alınacağını bildirib.

## Ərdoğan: "Azərbaycanlı qardaşlarımızı tək buraxmadıq, buraxmayacağıq"



Ermənistanın Azərbaycana qarşı hücumları zamanı azərbaycanlı qardaşlarımızı tək buraxmadıq, buraxmayacağıq. Bu fikirləri Prezident Rəcəb Tayyib Ərdoğan iyulun 21-də Türkiyə hökumətinin cari ilin birinci yarısının yekunlarına həsr olunan geniş toplantısında səsləndirib. Dövlət başçısı deyib ki, Türkiyənin bu mövqeyi dəyişməzdir.

## Qurban bayramı ilə əlaqədar qeyri-iş günləri belə olacaq

Azərbaycanda Qurban bayramı ilə əlaqədar beşgünlük iş həftəsində işləyənlər üçün avqustun 3-ü istirahət günü olacaq. SİA-nın məlumatına görə, 31 iyul və 1 avqust ölkədə Qurban bayramı qeyd edilir. Əmək Məcəllesinin 105-ci maddəsinin 5-ci hissəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2020-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 2019-cu il 2 dekabr tarixli 712s nömrəli Sərəncamına və "İş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında" 2019-cu il 2 dekabr tarixli 461 nömrəli Qərarına əsasən, həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi və iş və istirahət günlərinin yerdəyişməsi ilə əlaqədar olaraq beşgünlük iş həftəsində 3 avqust tarixi istirahət günü hesab olunacaq.

## ABŞ Konqresindən ermənilərə sarsıdıcı qətnamə zərbəsi: "işğalçısan!"



ABŞ Konqresinin nümayəndələr palatasının məhkəmə məsələləri üzrə komitəsi öz gündəliyinə konqresmenlər Stiv Şabot və Stefan Koenin düzəlişlərini daxil ediblər. Qeyd edilən düzəlişdə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldovanın adları keçir. SİA xarici mətbuata istinadən xəbər verir ki, düzəlişə görə, dövlət katibi və müdafiə naziri Konqresin müvafiq komitəsi ilə birgə bu ölkələrdəki köçkünlərin statuslarını müəyyən edəcəklər. Məruzədə 1991-ci ildə xarici güclər vasitəsi ilə qanunsuz olaraq işğal edilmiş ərazilərdən zorakı yollarla çıxarılan və eyni zamanda qətlə yetirilən Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova vətəndaşlarının adları yer alır. Sözügedən düzəliş artıq Ermənistanda panikaya səbəb olub. Ermənilər onu "ABŞ Konqresi tarixində ən anti-erməni qətnamə" adlandırıblar. Bu barədə erməni politoloq Suren Sarqsyan özünün "Facebook" səhifəsində yazıb. "Hələ indiyə qədər bu cür anti-erməni qətnaməsi olmamışdı. Əgər bu, həm də Senat tərəfindən qəbul edilərsə, bu, ciddi presedent və baş ağrısı olmaqla yanaşı, beynəlxalq və digər sənədlərin daxil olması perspektivini artıracaq", deyə erməni politoloq bildirib.

Qeyd edək ki, öz növbəsində Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bəyan edib ki, ABŞ Konqresinin nümayəndələr palatasında kifayət qədər mühüm düzəlişlər qəbul olunub. L.Abdullayeva hesab edir ki, bu düzəlişdə Azərbaycan ərazilərinin işğal faktı öz təsdiqini tapır.

*Rövşən RƏSULOV*

## Prezidentin köməkçisi: "Ermənistanın beynəlxalq sülh təşəbbüslərini dəstəkləməsi ilə bağlı bəyanatları riyakarlıqdan başqa bir şey deyil"



Azərbaycan Silahlı Qüvvələri tərəfindən mülki obyektlərin, o cümlədən kritik infrastrukturun hədəfə alınması Azərbaycanın heç zaman siyasəti olmayıb, olmayacaq da. Bu, Ermənistandır ki, belə məsələləri siyasi məqsədlər üçün, dezinformasiya məqsədilə istifadə edir.

Bu fikirləri iyulun 21-də mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Metsamor AES-lə bağlı Ermənistanda səslənən fikirlərə münasibət bildirərkən söyləyib.

Hikmət Hacıyev deyib ki, Ermənistanın əvvəlki prezidenti ölkəsinin arsenalında olan "İsgəndər" və "Skad" raketləri ilə Azərbaycanın Bakı və onun ətrafında yerləşən neft-qaz infrastrukturlarını birbaşa vurmaqla hədələyib. Bundan əlavə, Ermənistanın siyasi-hərbi rəhbərliyi onların arsenalında olan "İsgəndər" və digər raket sistemləri vasitəsilə Azərbaycanın Mingəçevir Su Anbarını vurmaqla hədələyib, həmçinin Azərbaycanın şəhərlərini darmadağın edəcəkləri ilə bağlı təhdid xarakteri daşıyan açıqlamalarla çıxış edib. Bundan başqa, hadisələrin gedişi zamanı Ermənistan tərəfindən Azərbaycan Respublikasının kritik əhəmiyyət daşıyan infrastrukturlarının, həmçinin neft-qaz boru kəmərlərinin hədəfə alınacağı xarakteri daşıyan açıqlamalar verilib. Bütün bunlar bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin açıq niyyətini göstərməkdədir.

"Bir daha qeyd etmək istəyirəm ki, Ermənistandan fərqli olaraq Azərbaycan tərəfindən hər hansı strateji obyektlərin hədəfə alınması kimi siyasətimiz yoxdur. Bununla bağlı yalnız fərdi əsasda söylənilən hər hansı fikri Ermənistan tərəfi məqsədyönlü şəkildə dezinformasiya kimi istifadə etmək istəyir və burada da Ermənistanın məqsədi öz çirkin niyyətlərini, cinayətlərini ört-basdır etməkdən, beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaqdan ibarətdir.

Bilirsiniz ki, BMT-nin Baş katibi tərəfindən qlobal atəşkəs təşəbbüsü irəli sürülüb. Dünyanın bir çox dövlətləri hətta Ermənistan tərəfi də buna qoşulub. Amma BMT-nin Baş katibinin qlobal atəşkəs haqqında təşəbbüsünü dəstəklədiyini iddia edən Ermənistan iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədində atəşkəsi kobud şəkildə pozaraq bu təxribatı törətdi. Bu, bir daha açıq şəkildə göstərir ki, Ermənistanın yürütdüyü siyasət riyakarlıqdır. Onun beynəlxalq sülh təşəbbüslərini dəstəkləməsi haqqındakı fikir və bəyanatları riyakarlıqdan başqa bir şey deyil. Ermənistan iyulun 12-də törətdiyi təxribatla əsl xislətini bir daha nümayiş etdirdi.

Hadisələrin gedişi onu göstərir ki, yalnız atəşkəs kifayət deyil. Ermənistan atəşkəsin arxasında gizlənərək Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir. Son hadisələr də onu göstərdi ki, işğal və təcavüzə son qoymaq lazımdır. Münaqişənin fundamental həllini tələb edən əsas şərtlərdən və amillərdən biri Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünə son qoyulmasıdır. Təcavüz aktına soy qoymaqla bərabər, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi təmin olunmalıdır. Ümumiyyətlə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi mexanizmlərinə yenidən baxılmalıdır", - deyə Prezidentin köməkçisi qeyd edib.

# Vüqar Rəhimzadə: “Azərbaycan mətbuatı dövrün tələblərinə uyğun təkmilləşir, modernləşir, prinsipləri isə dəyişməz qalır”



***“Mətbuat bütün dövrlərdə həqiqət carçısı olmuş, öz missiyasını yüksək səviyyədə yerinə yetirməyə səy göstərmişdir. Milli mətbuatımızın müstəqillik dövründən bəhs edərkən öncə göz önünə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin bu istiqamətdə göstərdiyi xidmətlər gəlir. Mətbuatın cəmiyyətdə rolunu önə çəkən Ümummilli Lider onun müstəqil, azad fəaliyyətinin təmin olunması, mövcud problemlərinin həlli istiqamətində davamlı tədbirlər həyata keçirmişdir. Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərliyi illərində dövrün tələblərinə uyğun olaraq atılan addımlar hər sahədə olduğu kimi, mətbuatın da inkişafında özünü qabarıq şəkildə büruzə verirdi.***

Ulu öndər Heydər Əliyev kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, mətbuatın iqtisadi müstəqilliyinin, jurnalistlərin peşəkarlığının artırılması məqsədilə biri-birindən əhəmiyyətli Fərman və sərəncamlar imzalamışdır. Ümummilli Liderin ən böyük tarixi xidmətlərindən biri də imzaladığı Fərman əsasında mətbuat üzərində senzuranın götürülməsidir. Bu mühüm addım mətbuatın inkişafında yeni bir mərhələnin əsasını qoydu. Məhz bu diqqət və qayğı, azad sözə verilən dəyər ulu öndər Heydər Əliyevi jurnalistlərin yaxın dostu, mətbuatın böyük hamisi kimi tanıtdı və bir daha təsdiq etdi. Ümummilli Lider 2002-ci ildə “Jurnalistlərin dostu” mükafatına layiq görüldü.”

Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə vurğulayıb ki, bu gün ölkəmizdə söz və mətbuat azadlığı üçün heç bir maneə yoxdur, mətbuat nümayəndələri istənilən mövzu ətrafında öz fikirlərini ifadə edir, fikir azadlığı mövcuddur, bir sözlə cəmiyyətin informasiya tələbatı yüksək səviyyədə ödənilir. Bu gün Azərbaycan mətbu orqanların sayına görə MDB məkanında öz liderliyini qoruyur. Ölkə əhalisinin 85 faizi internet istifadəçisidir. Təbii ki, bu, ölkəmizdə demokratiyanın inkişafının göstəricilərindəndir.

Baş redaktor son 16 ildən artıq dövrdə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəmizdə kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyət göstərməsi, jurnalistlərin öz iradələrini, mövqelərini azad şəkildə ifadə etmələri üçün bütün zəruri imkanlar yaradıldığını qeyd edib: “Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar bu gün cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Modernləşmə, yeniləşmə, dövrün tələblərinə uyğun təkmilləşmə mətbuatdan da yan keçməyib. Mətbuat daim dövlətin diqqət və qayğısı ilə əhatə olunub. 2005, 2010 və 2015-ci illərdə Azərbaycan milli mətbuatının yaranmasının 130, 135, 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, bu münasibətlə Azərbaycan mətbuat işçilərinin təltif edilməsi, fəxri adlar verilməsi, kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə dövlətin yüksək qiymətinin əyani təzahürüdür. Həmçinin möhtərəm Prezidentimiz İlham Əliyevin 2008-ci il 31 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında” sərəncamı, bu sənədə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da təsdiqləyir ki, mətbuata göstərilən qayğı davamlı və sistemli xarakter daşıyır. Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev jurnalistlərin dostu, mətbuatın hamisi kimi dəstəyini də davamlı edir və bu, media ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir, onlarda məsuliyyət hissini daha da artırır. Dövlətimizin başçısı İlham Əliyevin son 16 ildən artıq dövrdə 3 dəfə “Jurnalistlərin dostu” mükafatına layiq görülməsi də deyilənlərin təsdiqidir.”

V.Rəhimzadə qeyd edib ki, Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artması KİV-in və jurnalistlərin problemlərinin həlli istiqamətində mühüm tədbirlərin həyata keçirilməsindən də aydın görünür. Belə ki, Prezident İlham Əliyevin dünyada analoqu olmayan addımı - mətbuat işçilərinin mənzil probleminin həll edilməsi ilə bağlı sərəncamları ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmışdır: “bu istiqamətdə ilk Sərəncam 2010-cu ildə imzalanaraq 2013-cü ildə birinci bina jurnalistlərin ixtiyarına verildi. Həmin gün növbəti Sərəncam imzalandı və ikinci binanın təməli qoyuldu. Atılan bu addımların davamlı olacağı dövlətimizin başçısı İlham Əliyevin 2017-ci ildə ikinci binanın açılışında söylədiyi “Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər belə məsələ qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə artıq biz burada ikinci binanın açılışını qeyd edirik. Xatırlayıram, 4 il bundan əvvəl birinci binanın açılışında mən demişdim ki, yaqin gələcəkdə bu əraziyə “Jurnalistlər şəhərciyi” deyiləcək və bu, belə də oldu. Artıq bu gözəl yer “Jurnalistlər şəhərciyi”dir, burada üçüncü bina da tikiləcək. Əlbəttə ki, biz jurnalistlərin məişət problemlərinin həlli üçün gələcəkdə əlavə tədbirlər görəcəyik” fikirlərində də öz aydın ifadəsini tapmışdır. Artıq bu il üçüncü binanın istifadəyə verilməsi nəzərdə tutulur. Dövlətimizin başçısı İlham Əliyev daim bildirir ki, azad mətbuatın inkişafında bundan sonra da fəal olacaq.”

Vüqar Rəhimzadə dövlətin mətbuata diqqət və qayğısı ilə yanaşı, jurnalistlərin üzərinə düşən vəzifələrdən də danışıb. Bildirib ki, müharibə şəraitində yaşayan ölkənin mətbuatı həqiqətlərimizin təbliğində, düşmənlə ideoloji mübarizədə fəal iştirak etməli, milli maraqlarımızı yüksək səviyyədə qorumalı, birlik, həmrəylik nümayiş etdirərək ölkəmizə qarşı qərəzli mövqedə dayanan dairələrin əks təbliğatını reallıqlarımızla cavablandırmalıdır.

Dünyanı bürüyən pandemiyaya qarşı mübarizə tədbirlərinin gücləndirildiyi bir zamanda dövlətimizin başçısı İlham Əliyevin “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamını mətbuata diqqət və qayğının ən yüksək səviyyədə olması ilə əsaslandıran baş redaktor bu dövrdə də mətbuatın üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb: “Maarifləndirmə işinin lazımi səviyyədə qurulması üçün yazılı və elektron KİV-lər daha fəal olmalı, Azərbaycan dövlətinin koronavirusa qarşı mübarizə tədbirlərində üstünlük verdiyi özünütəcrid qaydalarının təbliğinə öz davamlı töhfələrini verməlidir. Azərbaycan pandemiya dövründə nəinki daxildə, eyni zamanda, beynəlxalq səviyyədə atdığı addımları ilə diqqət çəkir. Bu addımların əsl mahiyyətini, Azərbaycanın beynəlxalq aləmdə artan rolunun və mövqeyinin göstəricisi olduğunu geniş şəkildə təbliğ etməliyik. Azərbaycan müstəqil siyasəti ilə beynəlxalq birliyin fəal üzvünə çevrilib. Bu gün ölkəmizə hansı sahədən baxsaq, böyük inkişafın, tərəqqinin şahidi olarıq.”

V.Rəhimzadə hazırda yeganə problemimizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi olduğunu önə çəkərək, diqqəti son günlər Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribata, Azərbaycan Ordusunun bu təxribatın qarşısını qətiyyətlə almasına yönəldib: “Növbəti qələbəmiz bir daha bu əminliyə əsas verir ki, diplomatik mübarizədə qələbə qazanan Azərbaycan hərb yolunu seçərsə, rəşadətli ordusunun gücü, qüdrəti sayəsində işğal altında olan torpaqlarını azad etmək iqtidarındadır. Bu gün mətbuatın qarşısında dayanan əsas vəzifələrdən biri məhz informasiya təhlükəsizliyini qorumaqla, müasir dövrün imkanlarından maksimum istifadə edərək həqiqətlərimizi, ermənilərin iç üzünü bir daha dünya ictimaiyyətinə çatdırmaqdır. Həmkarlarıma qələbə sevincimizin müjdəçisi olmağı, modernləşmə, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların tətbiqi kimi prinsipləri hər zaman fəaliyyətlərinin önündə saxlayaraq dövlətçiliyimizin möhkəmləndirilməsinə töhfələrinin davamlılığını arzulayıram. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqımıza müraciətində vurğuladığı kimi, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompyuter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur.”

## Adil Əliyev: “ABŞ Konqresinin qəbul etdiyi sənəd Ermənistanın işğalçı dövlət olmasını bir daha təsdiq edir”



Bu gündən etibarən Amerika Birləşmiş Ştatları Konqresi rəsmi olaraq Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsi faktını tanıdı. Belə ki, ABŞ Konqresinin Qaydalar komitəsində Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını dövlət səviyyəsində ilk dəfə tanıyan 296 saylı düzəliş qəbul edildi. Düzəlişin mətnində deyilir ki, ABŞ-ın Dövlət katibi Müdafiə katibi ilə birlikdə Azərbaycanın (o cümlədən Ukrayna, Gürcüstan və Moldova) xarici qüvvələr tərəfindən 1991-ci ildən bəri qeyri-qanuni işğal olunmuş ərazilərində öldürülmüş və məcburi köçkün düşmüş insanların sayı barədə Konqresin müvafiq komitəsinə hesabat verməlidir.

Milli Məclis Sədrinin müavini Adil Əliyev açıqlamasında bildirib ki, Amerika Birləşmiş Ştatları Konqresinin hazırda Ermənistan tərəfinin ölkəmizin sərhədlərində apardığı təxribat zamanı belə bir qanunu qəbul etməsi, təbii ki, ölkə başçısı Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu xarici siyasətin bəhrəsi və diplomatiyamızın çox böyük uğurudur. Xüsusilə vurğulamaq yerinə düşər ki, Ermənistan lobbisinin dayaqları olan ölkələrdən biri də təəssüflər olsun ki, Amerika Birləşmiş Ştatlarıdır, hansı ki, qeyd olunan aktların qəbulu zamanı da özlərinə məxsus şəkildə çətinlik yaratmağa cəhd etmişlər. Lakin qeyd olunan hadisələr fonunda ABŞ Konqresinin belə bir qanun qəbul etməsi əslində ABŞ-ın Azərbaycanı strateji tərəfdaş olmaqdan əlavə, Cənubi Qafqazın şəriksiz lideri olaraq görməsinin əyani təzahürüdür.

Qəbul edilmiş 296 saylı qanunda müəyyən vəzifələr nəzərdə tutulub ki, bunun da ən əsası Ermənistan tərəfindən qeyri-qanuni işğal zamanı öldürülmüş şəxslər barədə hesabatların hazırlanmasıdır. Artıq Ermənistan tərəfinin törətdiyi qırğınlar və apardıqları təcavüzkar siyasətinin nəticəsi barədə hər il Amerika Birləşmiş Ştatları Konqresində hesabatlar dərc ediləcək və dünyanın diqqətinə çatdıracaq. Həmçinin həmin hesabatlarda Ermənistanın təcavüzü nəticəsində ölkəmizdə məcburi olaraq ata-baba yurdlarını tərk etməyə məcbur olmuş məcburi köçkünlər barədə məlumatların alınması nəzərdə tutulub.

Eyni zamanda, ABŞ Konqresinin bu qanunu qəbul etməsi bizim üçün həm də ona görə zəruridir ki, Birləşmiş Millətlər Təşkilatının Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə təcavüz etməsi barədə qəbul etdiyi dörd qətnamə bu günə qədər Ermənistan tərəfindən icra olunmayıb, hansı ki, həmin qətnamələr qeyd-şərtsiz icra edilməli və Ermənistan işğal etdiyi əraziləri boşaltmalı idi. Bu gün ABŞ-ın dünyanın lider dövlətindən biri olmasını, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olmasını nəzərə alsaq, yaxın gələcəkdə bu qətnamələrin hansı səbəbdən icra edilməməsi və işğalçılıq siyasətinin nəticələrini gözdən keçirməyə imkan verəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, ölkəmiz birmənalı şəkildə hücum diplomatiyasını rəhbər tutub və Ermənistan tərəfinə zərbələri təkcə Milli Ordumuz tərəfindən döyüş meydanında deyil, eyni zamanda, diplomatiyada da vurmağa davam etməliyik. Onların diplomatik sahədə fiaskoları yalnız Valday, Moskva, Aşqabad görüşlərindən ibarət deyildir. Hazırda Ermənistanın təcavüzü barədə həm yerli, həm də xarici mətbuatda məlumatlar paylaşılır, eyni zamanda, ayrı-ayrı xarici ölkələrdə yaşayan diaspor fəallarımız bu işğalçılıq siyasətinin dünyaya tanıdılması, işğalçılıq siyasətinin nəticələri barədə həmin ölkələrdə fəaliyyət göstərən diplomatik korpusumuzun nümayəndələri ilə həyati vacib işlər görürlər. Nəticədə işğalçı dövlətin vətəndaşları səfirliklər qarşısından qovulur və ya xislətlərinə uyğun olaraq yaratmaq istədikləri ajiotajların qarşısı ciddi şəkildə alınır.

Ölkəmiz tərəfindən aparılan xarici siyasətin vahid məqsədi Ermənistan tərəfinin apardığı işğalçı siyasəti bütün dünyanın diqqətinə çatdırmaq, Ermənistanın beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarını pozmaları, işğal etdikləri əraziləri qeyd-şərtsiz boşaltmalarını tələb etməkdir. Qeyd edilənlər hazırda bu qənaətə gəlməyə imkan verir ki, bütün sahələrdə olduğu kimi, xarici siyasət sahəsində də aparılan işlər öz uğurlu nəticələrini verməkdədir.

## Sergey Lavrov Azərbaycanın və Ermənistanın Moskvadakı səfirləri ilə görüşüb



İyulun 21-də Rusiya Xarici İşlər Nazirliyinin iqamətgahında Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov, Azərbaycanın və Ermənistanın Moskvadakı səfirləri Polad Bülbüloğlu və Vardan Toqanyan birgə işçi nahar ediblər. AZƏRTAC RF XİN-in mətbuat xidmətinə istinadla xəbər verir ki, görüşdə Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi, Ermənistan-Azərbaycan sərhədində vəziyyətin sabitləşdirilməsi məsələləri, həmçinin Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi ilə nizamlanmasına dair səylərin fəallaşdırılması perspektivləri müzakirə edilib.

# Mətbuat tarixinin 145 illiyi

## İlk gündəlik qəzet eramızdan əvvəl dərc olunub

***Mətbuatın tarixinə nəzər saldıqda görürük ki, ilk qəzet eramızdan əvvəl 59-cu ildə Qədim Romada dərc olunub. Gündəlik dərc olunan "Günün hadisələri" adlı qəzet əl ilə yazılıb və oxuya bilənlərin məlumatlana bilməsi üçün müəyyən olunmuş yerlərdən asılan kağız vərəqələr şəklində idi. Ondan sonra 1300 il əvvəl Qədim Çində əl ilə yazılan "Paytaxt yenilikləri" adlı gündəlik qəzet nəşr olunub.***



Sonralar 1609-cu ildə Almaniyada müntəzəm nəşr olunan "Zaytunq" adlı qəzet dünyada ilk çap məhsulu hesab edilir.

Beləliklə, məlumat çatdırmaq, cəmiyyətin, insanların, vətəndaşların məlumatlandırılması forması kimi qəzetçiliyin inkişaf tarixi qədimlərdən bugünə kimi uzun tarixi inkişaf yolu keçərək, daim dövrün müasir texnologiyaları ilə yenilənərək bugünkü formasını almışdır.

Mütərəqqi insanlar mətbuatdan vətəndaşların yaşadıqları dövrə uyğun olaraq savadlanması, cəmiyyətdə mövcud olan neqativlərin tənqidi və təbliğat işlərində geniş şəkildə istifadə etmişlər. Yəni mətbuat həmişə, bütün dövrlərdə və bütün cəmiyyətlərdə insanları, kütlələrin ön cərgəsində gedən bir təbəqədə mövcud olaraq cəmiyyəti istiqamətləndirmək funksiyasını yerinə yetirmişdir. Qəzet, jurnal, sonra radio, televiziya və nəhayət bu günkü dünyanın elektron kütləvi informasiya vasitələri tarixdən bu günə qədər dünyada öz rolunu, öz dəyərini nəinki itirməmiş, əksinə zaman-zaman daha güclənib, daim özünün müasir formasında mövqeyini qətiləşdirmişdir.




1895-ci ildə məşhur rus mühəndisi Aleksandr Stepanoviç Popov radionu kəşf etdikdən sonra 1901-ci ildə italyan Gulielma Markoni tərəfindən radio yayımı tətbiq edildikdən sonra, 1923-cü ildə rus alimi Vladimir Zvoriqin ilk dəfə televiziya sistemini yaradaraq 1936-cı ildə İngiltərə və Almaniyada, 1941-ci ildə isə ABŞ-da mütəmadi olaraq televiziya yayımının tətbiqi elektron kütləvi informasiya vasitələrinin əcdadı sayılır.

Mətbuatın cəmiyyətin idarə olunmasındakı vacib rolu bütün dövrlərdə idarə edənlər tərəfindən nəzərə alınmış və bunun əhəmiyyəti qiymətləndirilərək uyğun olaraq müvafiq qərarlar qəbul edilmişdir. Əsrin əvvəlində Car rusiyasında bolşevik təbliğatında nəşriyyat işinin böyük rolu olmuşdur. O dövrün hökümətinin qadağalarına baxmayaraq xaricdə və daxildə gizli şəkildə nəşr olunan təbliğat vasitələri hakimiyyətin devrilməsində öz rolunu oynamışdı. Elə sovet hakimiyyətinə qarşı da daim təbliğat aparan "Amerikanın səsi", "Azadlıq" radiolarına qərb dairələri böyük məbləğlərdə vəsait xərcləyirdilər.





Yaxın tariximizdə, II dünya savaşında Adolf Hitler də müharibədə mətbuatın rolunu lazımınca qiymətləndirərək nəzərə almışdı. Almanların Təbliğat Nazirliyi vərəqlər, kitabçalar, radio yayımları, filmlər vasitəsilə təbliğat aparır və sovet əsgər və zabitlərini, sovet sərhədlərindəki xalqları öz tərəflərinə çəkmək üçün iş aparırdılar. Bu işlərə Hitlerin yaxın silahdaşı Yozef Gebbels rəhbərlik edirdi.

Müharibənin ilk vaxtlarında aparılan təbliğatın nəticəsində çoxlu sovet zabitləri almanların tərəfinə keçmişdi. Almanları Təbliğat Nazirliyinin nəzdində olan "Vineta" təşkilatının rəhbəri Taubert 1943-cü ildə Gebbelsə yazdığı hesabatda bildirirdi ki, iki il ərzində təyyarələrdən atılmaq üçün 500 milyon ədəd vərəqə və kitabça çap olunub, 60 milyon ədəd isə hazırda çapdadır. Eyni zamanda hesabatda göstərilirdi ki, türküstanlıların, azərbaycanlıların və gürcülərin öz dillərində "Almaniya hürrüyət gətirir" məzmunlu kitabçalar nəşr olunub yayılırdı. Almaniya Təbliğat Nazirliyinin nəzdində fəaliyyət göstərən "Vineta" təşkilatının radioverilişlər xidməti rus, ukrayna, belorus, pribaltika və Qafqaz redaksiyaları bu dillərdə gündəlik verilişlər hazırlayıb yayınlayırdılar. Qafqaz redaksiyasına əvvəllər professor Şayber, sonralar isə qafqazlı alman Lents rəhbərlik edirdi. Qafqaz redaksiyasının da nəzdində Azərbaycan, gürcü, erməni, Şimali Qafqaz, türkmən, tatar, kalmık milli redaksiyaları fəaliyyət göstərirdi.

Ümumiyyətlə, həm müharibədə, həm soyuq müharibə dövründə təbliğat və anti-təbliğat silahı çox geniş istifadə olunmuşdur. Bu günkü dünyada da istər lokal və regional müharibələrdə, istər iqtisadi rəqabətdə, istər elmin, mədəniyyətin təbliğində informasiyanın, mətbuatın rolu çox böyük və danılmazdır.

Azərbaycan mətbuatının inkişaf tarixinə nəzər saldıqda 1832-ci ildə "Tiflis əxbarı" və 1845-ci ildə "Zaqafqazki vestnik" qəzetinə əlavə kimi "Qafqazın bu tərəfin xəbəri" bülleteni nəşr olunsa da milli mətbuatın bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk sayının dərc olunması ilə qoyulmuşdur.

Təbiətşünas alim, milli maarifçilik hərəkatının banilərindən olan Həsən Bəy Zərdabinin naşiri və redaktoru olduğu "Əkinçi" qəzeti bütün Qafqazda böyük əks-səda doğurmuşdu. Həmin dövrün görkəmli ziyalıları olan Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani kimi şəxsiyyətlər "Əkinçi" qəzeti vasitəsilə öz maarifçilik ideyalarını təbliğ edərək dövrün ictimai, siyasi və bədii fikrin inkişafına təsir göstərirdilər. "Əkinçi" qəzetinin dili də xalqın anlaya biləcəyi dildə olduğu üçün geniş nüfuz qazanaraq Azərbaycandan kənarda da - Gürcüstan, Dağıstan, Özbəkistan və s. yayılırdı. "Əkinçi" qəzeti mövhumata, cəhalətə, xuarafata qarşı mübarizə aparır, maarifçilik, qadın azadlığı, təhsilin inkişafı ilə bağlı məqalələr dərc edirdi. 1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra bir çox səylərə baxmayaraq bir müddət Azərbaycanda ana dilimizdə qəzet nəşr etdirmək mümkün olmamışdır. Rusdilli qəzetlərdən uzunömürlü "Kaspi"nin 1897-ci ildən naşiri Hacı Zeynalabdin Tağıyev, redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdur. Həmin dövrdə rus dilində dərc olunan digər qəzetlərdə də Azərbaycanca səhifə yaratmaq cəhdləri mümkün olmamışdı. 1883-1891-ci illərdə Tiflisdə dərc olunan "Kəşkül" qəzeti və jurnalı "Əkinçi" üslubunu davam etdirə bilmişdi.

1903-cü ildə Tiflisdə Məmmədağa Şahtaxtinskinin nəşr etdirdiyi "Şərqi-rus" qəzeti XX əsrdə Azərbaycan dilində çap olunan ilk qəzet oldu. Qəzetin ətrafında Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçi mütəfəkkirlər birləşərək ana dili, elm və maarifçilik, qadın azadlığı və digər mütərəqqi fikirlərin təbliği ilə məşğul olurdular. "Şərqi-rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət mətbuatın inkişafında xüsusi rol oynamışdır.

Cəlil Məmmədquluzadənin naşirliyi və redaktorluğu ilə 1906-cı ilin aprelin 7-də Tiflisdə işıq üzü görən "Molla Nəsrəddin" həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə və 1922-1931-ci illərdə Bakıda nəşr edilmişdir.

Jurnalda Azərbaycanın görkəmli yazıçı, jurnalist və ziyalıları ilə yanaşı Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamlar da fəaliyyət göstərirdilər. Həmin dövrlərdə artıq Bakıda "Kaspi" mətbəəsi, Tiflisdə, Gəncədə, Şuşa, Naxçıvan kimi şəhərlərdə kiçik məhdud imkanlı olsa da mətbəələr, çapxanalar yaradıldı. 1901-1918-ci illərdə Azərbaycanda çoxlu qəzetlər dərc olunmuşdu ki, bu maarifçilik, mütərəqqi ideyaların təbliği, dünyəvi elmlər, qadın azadlığı, xurafata qarşı mübarizədə milli düşüncə və ideologiyanın təbliğində böyük rol oynamışdı. 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin əldə olunmasında həmin dövr mətbuatının da rolu böyük olmuşdur. İstər Azərbaycan Xalq Cümhuriyyəti dövründə, istərsə də sovetlər dönəmində ideologiyalar fərqli olsa da Azərbaycan mətbuatı özünün tarixi inkişaf yolunu keçərək estafeti XX əsrin sonunda yenidən müstəqilliyini qazanmaq şansı əldə etmiş və yeni dövrə təhvil vermişdir.

Bütün Sovet Sosialist Respublikası İttifaqında (SSRİ) başlayan yenidənqurma havası Azərbaycana da çatdı və ictimai mühitə kəskin təsir göstərdi. Millətin dirçəliş dövrü kimi tarixdə qalan 1989-cu ildə



# Mətbuat tarixinin 145 illiyi

## İlk gündəlik qəzet eramızdan əvvəl dərc olunub

“Azərbaycan” qəzeti yaradıldı. Müstəqil mətbuatın qaranquşları hesab edilən “Səhər” qəzeti 1989-cu ilin 4 avqust tarixində və “Azadlıq” qəzeti 1989-cu ilin 24 dekabr tarixində işıq üzü gördülər. “Səhər”ə tanınmış jurnalist Məzahir Süleymanzadə, “Azadlıq”a tanınmış jurnalist Nəcəf Nəcəfov rəhbərlik edirdilər.

1990-cı ildə “Zerkalo”, “Səs”, 1991-92-ci illərdə “Yeni Müsavat”, “İki Sahil”, “525-ci qəzet”, “Yeni Azərbaycan” qəzetləri nəşr olunmağa başladı.

1998-ci ilin avqust ayının 6-da prezident Heydər Əliyevin imzaladığı xüsusi Sərəncamla Azərbaycanda mətbuat üzərindən senzura götürüldü. Həmçinin, 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri (KİV) haqqında Azərbaycan Respublikasının Qanununun (ARQ), digər hüquqi-normativ aktların qəbulu həyata keçirilib.

Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin (KİV) inkişafına Dövlət Dəstəyi Konsepsiyası (DDK)kimi mühüm bir sənəd təsdiq olunmuşdur. Konsepsiyaya uyğun olaraq 22 may 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (DDF) yaradılmışdır.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı-qəzet və jurnal fəaliyyət göstərir. Hazırda ölkədə 4500-ə yaxın mətbuat orqanı Ədliyyə Nazirliyində (ƏN) qeydiyyatdan keçib.

Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə “Əkinçi” qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli mətbuat və jurnalistika günü kimi qeyd olunur.

XX əsrin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətini təmsil edən şəxslərin formalaşmasında onların təbliğatında və yeni qurulmaqda olan dövlətin bütün çətinliklər və təlatümlərlə mübarizəsində, milli düşüncə, milli ideologiyanın inkişafında, dövrün vacib tələbinə müvafiq xurafatın, cəhalətin tənqidi, savadsızlıqla mübarizə və elmin, mədəniyyətin təbliğində mətbuatın böyük rolu olmuşdur.

XX əsrin sonunda isə yenə müstəqillik qazanmaq fürsəti ələ düşsə də yenə də dövlət müstəqilliyinin qorunub saxlanması böyük çətinliklər, təlatümlər, labirintlər sınağından çıxmalı oldu. Əldə olunmuş dövlət müstəqilliyimiz bugünkü Azərbaycan vətəndaşının ən böyük nemətidir. Lakin müstəqilliyimizin möhkəmlənməsi, milli mənafeyimizin qorunması başlıca prinsip olmaqla demokratik dövlət quruculuğu və iqtisadi inkişaf, bütün bunlarla paralel olaraq işğal altında qalan doğma yurdlarımızın azad edilməsi bugünkü, müasir Azərbaycan xalqının və Azərbaycan vətəndaşının başlıca vəzifəsinə çevrilmiş bir prosesdir. Və bu prosesdə - həm güclü, müstəqil, qüdrətli, demokratik dövlət quruculuğunda, yüksək sosial-iqtisadi yaşam standartlarına nail olunması və qalib, müzəffər ordumuzun zəfər qələbəsinə şahidlik nəsibinin yaşanmasında, vətənpərvərlik ruhiyyəsinin, vətən və dövlət sevgisi, qürur hissinin yüksəlməsində mətbuat-təbliğat işinin rolu əvəzsizdir.



Azərbaycan Respublikasının Prezidenti müstəqil milli dövlətimizin inkişafında mətbuatın rolunu və xidmətini çox yüksək qiymətləndirərək bu ziyalı zümrəyə daim diqqət və qayğı göstərmişdir.

Mətbuat Şurası üçün yeni inzibati binanın, o cümlədən mətbuat işçiləri üçün dövlət hesabına yaşayış binasının tikintisi də mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Xüsusi vurğulamaq lazımdır ki, mətbuat işçiləri üçün dövlət hesabına mənzillərin inşası dünya miqyasında analoqu olmayan hadisədir.







Bütün bunları yüksək qiymətləndirən Azərbaycan mətbuatı Prezident İlham Əliyevi üçüncü dəfə “Jurnalistlərin dostu” elan edib. “RUH” Jurnalistləri Müdafiə Komitəsi tərəfindən aparılan rəy sorğusunda Prezident İlham Əliyev ən yüksək səs çoxluğu ilə “Jurnalistlərin dostu” seçilib. 2019-cu il iyulun 20 də jurnalistlər üçün tikilən ikinci binanın açılışında və üçüncü binanın təməlqoyma mərasimində Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov ölkə jurnalistlərinin adından bu möhtəşəm mükafatı təqdim etdi. Mükafatı qəbul edən Prezident İlham Əliyev ölkəmizdə mətbuatın inkişafı istiqamətində mühüm addımların atıldığını qeyd edərək vurğuladı ki, demokratik cəmiyyətin qurulması istiqamətində azad mətbuatın rolu danılmazdır: “Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır”.




Bu, bir faktdır ki, mətbuatda dövlətçilik maraqlarına hörmət prinsipi bütün şəxsi maraqlardan öndə dayanmalıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyini beynəlxalq aləmdə geniş təbliğ etməyə, eyni zamanda, Azərbaycanla bağlı xaricdə yayılan informasiyaların dövlət maraqlarına xidmət etməsində medianı həmrəy olmağa səsləyib. 2019-cu ilin iyulun 20-də jurnalistlərlə görüşü zamanı cənab Prezident onlara üz tutaraq bildirdi ki, mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim: “Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər belə məsələ qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə artıq biz burada ikinci binanın açılışını qeyd edirik. Xatırlayıram, 4 il bundan əvvəl birinci binanın açılışında mən demişdim ki, yəqin gələcəkdə bu əraziyə “Jurnalistlər şəhərciyi” deyiləcək və bu, belə də oldu. Artıq bu gözəl yer “Jurnalistlər şəhərciyi”dir, burada üçüncü bina da tikiləcək. Əlbəttə ki, biz jurnalistlərin məişət problemlərinin həlli üçün gələcəkdə əlavə tədbirlər görəcəyik”.



Prezident İlham Əliyev jurnalistlərlə görüşündə azad mətbuatın inkişafı üçün daha əlverişli şəraitlərin yaradılacağını bildirdi. Przidentin sözlərinə görə, məhz demokratik dəyərlərin qorunması və xalqla iqtidarın birliyi Azərbaycanı qlobal təhlükələrdən qoruyur: “O ki qaldı, jurnalistikanın gələcək inkişafı ilə bağlı məsələlərə, sizə deyə bilərəm ki, Azərbaycan dövləti azad mətbuatın inkişafında bundan sonra da fəal olacaq. Jurnalistlər üçün bütün şərait yaradılıb. Bu gün Azərbaycan cəmiyyəti rahat şəraitdə, təhlükəsizlik, sabitlik şəraitində yaşayır. İndiki zəmanədə bu, özlüyündə bir nailiyyətdir və biz ölkəmizi bütün mümkün olan risklərdən qoruyuruq. Ölkəmizin daxilində demək olar ki, risk mənbələri yoxdur. Xaricdən özümüzü qorumaq üçün kifayət qədər ciddi siyasət aparılır, həm ideoloji sahədə, həm sərhədlərimizin qorunmasında və ümumiyyətlə. Biz həmişə çalışırıq və hesab edirəm buna nail olmuşuq ki, Azərbaycanı mümkün risklərdən qoruyaq, Azərbaycan xalqı rahat, sülh şəraitində yaşasın”.

Azərbaycan Prezidenti jurnalistlərə mənzillərin bölüşdürülməsində ədalət prinsipinin qorunmasının mühüm şərt olduğunu vurğulayaraq bildirib: “Bu binalarda yaşayan və bundan sonra yaşayacaq jurnalistlər müxtəlif siyasi spektrə aiddir və burada da heç bir ayrı-seçkiliyə yol verilmədi. Müxtəlif siyasi baxışları, müxtəlif partiyaların üzvləri olan insanlar burada bir yerdə bir ailə kimi yaşayacaqlar. Əslində, Azərbaycan cəmiyyəti də bu istiqamətdə inkişaf edir. Azərbaycanda milli həmrəylik var. Azərbaycan cəmiyyəti vahid amal ətrafında birləşib. Bizdə olan inkişaf, sabitlik, əmin-amanlıq, əlbəttə, bu gün siz də yaxşı bilirsiniz ki, dünyanın bir çox yerlərində öyrənilir, bəzən təəccüblə qarşılanır və bunun da çox sadə səbəbi var. Çünki Azərbaycanda çox gözəl, demokratik şərait var. Azərbaycanda iqtisadi inkişaf var. Azərbaycan müstəqil siyasət apararaq həm bölgədə, həm dünyada öz mövqelərini möhkəmləndirib. Bizim təsir imkanlarımız genişlənir, böyüyür və Azərbaycan xoşniyyətli siyasət aparır. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır”.

*MÜSTƏQİL, MİLLİ DÖVLƏTİMİZİN QURUCULUĞUNDA DEMOKRATİK DƏYƏRLƏRİN İNKİŞAFINDA, CƏMİYYƏTİN ELMİ, SİYASİ-İDEOLOJİ İNTELLEKTİNİN VƏ DÜNYAGÖRÜŞÜNÜN, VƏTƏNDAŞLIQ QÜRURUNUN, DÖVLƏT SEVGİSİ HİSSİNİN, VƏTƏNPƏRVƏRLİK RUHUNUN YÜKSƏLMƏSİNDƏ AZƏRBAYCAN MƏTBUATININ ƏVƏZSİZ ROLU, MƏTBUAT İŞÇİLƏRİNİN BÖYÜK ZƏHMƏTİ VARDIR. BÜTÜN MƏTBUAT İŞÇİLƏRİNİ PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ ÜRƏKDƏN TƏBRİK EDİR, AZƏRBAYCAN XALQININ VƏ DÖVLƏTİMİZİN İNKİŞAFI VƏ QÜDRƏTLƏNMƏSİNDƏ GÖSTƏRDİYİNİZ XİDMƏTLƏRDƏ UĞURLAR ARZULAYIRIQ.*

***“Resurs” Analitik İnformasiya Mərkəzi***

# Azərbaycanın milli mətbuatı böyük və şərəfli yol keçərək, bu gün daha nəhəng uğurlara imza atmaqdadır

*"SƏS" Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyevin yap.org.az-a müsahibəsi*

***- Bəhruz müəllim, Azərbaycan mətbuatı yaranmasının 145-ci ildönümü ərəfəsindədir. Ötən illər ərzində mətbuatımızın keçdiyi tarixi yolu necə şərh edərdiniz?***

- Öncəliklə, qarşıdan gələn 145-ci ildönümü ilə bağlı bütün həmkarlarımı təbrik etmək istərdim. Bu çətin, məsuliyyətli və şərəfli yolda hər birinə işlərində uğurlar, müvəffəqiyyətlər arzu edirəm.

Sualınıza gəldikdə isə, sözlərimi Azərbaycanın mütəfəkkiri Həsən bəy Zərdabinin sözləri ilə başlayardım - Maarifdən, elmdən məhrum xalq işıqdan məhrumdur. Bəli, məhz bu kəlamı dərindən təhlil edərkən, həqiqətən də maarifçiliyin nə qədər önəmli bir şərt olması özünü bir daha təsdiq edir. Söz yox ki, mətbuat da bu şərtin mənbəsi olaraq qiymətləndirilir. Azərbaycan maarifçilik aynasının mətbuat olması, yarandığı gündən özünü bütün müsbət mənalardan göstərib. Belə ki, bu gün Həsən bəyin əsasını qoyduğu, Azərbaycanın ilk mətbu nümunəsi olan "Əkinçi"nin yaranmasından 145 il ötür. Lakin mövzuya və sualınıza daha dərin, müfəssəl aydınlıq gətirmək üçün demək istərdim ki, mətbuat tariximizi bir neçə mərhələyə aid etmək olar - Çar Rusiyası, Xalq Cümhuriyyəti, Sovet və müasir dövrlərimiz.

İlkin mərhələdə milli mətbuatımıza işıq salan və böyük bir jurnalist, maarifçi ordusu yetişdirən "Əkinçi" məktəbi barədə danışa bilərik. Bu məktəb həm də əzm, fədakarlıq, mübarizə məktəbidir desək, heç də yanılmarıq. Bildiyimiz kimi, qəzetin ilk nəşri 1875-ci il iyul ayının 22-də işıq üzü görmüşdü. Həsən bəy Zərdabi "Əkinçi" qəzetinin əsas məqsəd və vəzifələrindən bəhs edərək yazırdı: "Qəzetin muradı xalqın gözünü açmaqdır, həyatda olan işləri ayna kimi xalqa göstərsin ki, xalq da onun əlacının dalınca getsin".

Çar Rusiyasının siyasi idarəçiliyi dövründə çox ciddi senzura altında nəşr olunan qəzetin cəmi 56 nömrəsi çapdan çıxdı və 1877-ci ildə onun nəşrinə qadağa qoyuldu. H.Zərdabinin əsas fəaliyyəti xalqın düşüncəsinə təsir etmək, onu gerilik və cəhalətdən qurtarmaq, millətin mənlik şüurunun inkişafına nail olmağa yönəlmişdi. O, "Əkinçi"nin səhifələrində dünyanın aparıcı ölkələrində çıxan qəzetlər haqqında müntəzəm olaraq məlumatlar dərc edir, onların çap və yayılma mədəniyyəti barədə şərhlər verirdi. "Əkinçi"ni bu qəzetlərlə müqayisə edir, müəyyən ziyalı dairələrində milli, mənəvi təəssübkeşlik hissini oyatmağa çalışırdı.

"Əkinçi"dən sonra bir-birinin ardınca çap olunan "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" kimi mətbu orqanlarında bu məktəbin maarifçilik ideyaları davam etdirilirdi. Adı çəkilən qəzet və dərgilərdə fəaliyyət göstərən dövrün görkəmli yazarları, həqiqi mənəviyyat adamları, vətənpərvər ziyalıları insanlara mətbuatın nə qədər böyük məfhum olduğunu, cəmiyyətin həyatında mühüm rol oynadığını aşılamağa çalışırdılar. Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir və s. kimi ziyalılarımızın qələmləri xalqın, millətin o dövrün çətinliklərindən, məzlumluqdan xilas olması üçün yazırdı.

Bundan sonrakı illərdə Azərbaycanda "Şərqi-rus", "Həyat", "Açıq söz", "Azərbaycan" kimi qəzetlər, 1906-cı ildə isə mətbuatımızın incisi olan "Molla Nəsrəddin" jurnalı işıq üzü gördü. "Molla Nəsrəddin" kimi satirik jurnalın dərci deyərdim ki, o dövrün maarifçilik meyarlarına özəl rəng qatırdı. Ümumiyyətlə, XX əsrin əvvəllərində nəşr olunan müxtəlif qəzet və dərgilər mövcud ictimai-siyasi sistemin keyfiyyətini əsaslı şəkildə də-



yişməyə nail olurdu. Bu, həmçinin Azərbaycanın milli mətbuatı tarixində yeni, inqilabi bir mərhələ, novatorluq reallığı idi. Həmin zamanlar yazılan fikir və düşüncələr bu mərhələdə xalqın maariflənməsi, onun oyanışı və dirçəlişi yolunda böyük uğurlara imza atdı.

O da əbəs deyil ki, məhz Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mərhələsi yenilənən mərhələnin davamı, ardı oldu. 1918-20-ci illərdə meydana gələn qəzet və jurnallar artıq siyasi mətbuatın yaranmasından xəbər verirdi. Cəmi 23 ay ərzində nəşr olunan "İstiqlal", "Azərbaycan", "Açıq söz" kimi qəzetlərin əsas məqsədi Azərbaycan istiqlalını müdafiə etmək, onu qoruyub saxlamaq, beynəlxalq aləmə həqiqətləri çatdırmaq idi. Əbəs deyil ki, qəzet və jurnallar poçtlar vasitəsi ilə uzaq Avropaya çatdırılır, Azərbaycanın müstəqillik reallıqları, üzləşdiyi çətinliklər barədə xarici mətbuatlara informasiyalar verilirdi. Bu böyük işlərin öhdəsindən gəlmək isə əlbəttə ki, şücaət idi.

Lakin sonrakı mərhələdə - 1920-ci il aprelin 28-də Azərbaycan Demokratik Respublikasının bolşeviklər və onların dəstəkçiləri tərəfindən işğal olunmasından sonra siyasi dəyişiklik fonunda Azərbaycan mətbuatında durğunluq dövrü yarandı. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan şairləri, yazarları, mütəfəkkirləri, eyni zamanda, ölkə mətbuatı və o dövrün siyasi hadisələrinin diktəsi altında keyfiyyətcə yeni bir üslub yaratmağa başladılar. Buna baxmayaraq, Azərbaycan mətbuatı bu dövrdə ədəbi dilin, siyasi leksikonun, ictimai münasibətlərin formalaşmasında, əhalinin maarifləndirilməsində, cəmiyyətin saflaşdırılmasında çox böyük işlər gördü.

Sonrakı illərdə bu amil inkişaf etdirildi və əsasən, sağlam tənqidi yazılar istiqamətində də müəyyən irəliləyişlər oldu. Qeyd edəm ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövründə respublika mətbuatına xüsusi diqqət göstərilirdi. Respublikanın rəhbəri olaraq, Ulu Öndər tez-tez mətbuat nümayəndələri ilə görüşür, zamanın çətinliklərinə, durğunluq dövrü olduğuna baxmayaraq, yerlərdə aparılan araşdırmaların nəticələrinin ölkə qəzetlərində dərc edilməsinə göstərişlərini verirdi. Əbəs deyil ki, hətta həmin vaxtlarda felyetonlar, satirik yanaşmalar olan tənqidi yazılar işıq üzü görür, ictimai rəyin diqqətinə çatdırılırdı. Yeni bunun üçün Heydər Əliyev bir çox işlər görüb, yeniliklər gətirib. Sovetlər dövründə nəşrə başlayan "Kommunist", "Bakı", rusdilli "Baku", "Azərbaycan Gəncləri", rusdilli "Molodyoj Azerbaydjana", "Bakinskiy Raboçiy" və s. kimi qəzetlərlə yanaşı, müxtəlif aspektlərdən çıxış edən jurnallarımız, satirik dərgilərimiz də müntəzəmliklə dərc edilir, oxucularının qarşısına çıxarılırdı.

Beləliklə, biz belə bir nəticə hasil edə bilərik ki, milli mətbuatımız yarandığı gündən etibarən Azərbaycan xalqının ictimai, maarifçilik, sosial və siyasi həyatında böyük rol oynamağa başladı.

Daha bir fakt ən çox özünü xalqın milli azadlıq uğrunda mübarizə apardığı illərdə göstərdi. Belə ki, XX əsrin 80-ci illərinin sonlarında - Azərbaycanda milli azadlıq hərəkatının başlandığı dövrdə şübhəsiz, xalqı birləşdirən başlıca vasitələrdən biri, bəlkə də ən birincisi də məhz mətbuat idi. Həmin ildən başlayaraq "Azərbaycan", "Meydan", "Aydınlıq", "Səhər", "Həyat", və digər mətbuat orqanlarında dərc olunmuş analitik yazılar, ölkənin gələcəyindən narahatlıq hissi və vətəndaşlıq mövqeyi onları millətin obyektiv informasiya mənbəyinə çevirdi. 90-cı illərin əvvəllərindən isə "Səs", "Yeni Azərbaycan", "İki Sahil", "Şərq" və s. qəzetlər ölkədə və dünyada baş verən hadisələri işıqlandırmağa, oxucu kütləsini dolğun informasiyalarla təmin etməyə başladı. O da əbəs deyil ki, ölkə mətbuatı cəmiyyətin bütün təbəqələrinə nüfuz edən ictimai qüvvə kimi, məhz "dördüncü hakimiyyət" rolunu oynamağa başladı. Bu isə Azərbaycanda azad mətbuatın inkişafı, söz və mətbuat azadlığının təmin olunması istiqamətində böyük əhəmiyyətə malik idi.

***-Ulu Öndər Heydər Əliyev və Azərbaycan mətbuatı deyərkən, sizdə daha hansı assosiasiyalar, düşüncələr yaranır?***

- Mətbuat tariximizdə ən böyük hadisələrdən biri əlbəttə ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi idi. Bu, azad və demokratik Azərbaycan mətbuatının formalaşması üçün əsas şərt idi. Təbii ki, həmin dövrdə demokratik mətbuatın yaranması və inkişafı üçün ciddi əngəllər var idi ki, onlardan biri də senzuranın mövcud olması idi. Eləcə də, həmin vaxtın iqtidarları da medianın inkişaf təzahürünə, müstəqil yayım imkanlarına maneələr törədirdi. SSRİ rejiminin müəyyən təsirləri qalmaqda idi. Yalnız Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə geri qayıtdıqdan sonra Azərbaycan mətbuatının imkanları genişlənməyə başladı. Xüsusilə, 1998-ci ildə, Ümummilli Lider Heydər Əliyevin imzaladığı Fərmanla mətbuat üzərində senzura ləğv edildi, qəzetlərə yaşıl işıq yandırıldı. Bundan sonra ölkədə mətbuatın inkişafı ilə bağlı bir-birinin ardınca imzalanan Fərman və Sərəncamlar, xüsusilə də 1999-cu ildə KİV haqqında qanunun yaranması Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün ciddi zəmin yaratdı.

***- Sizcə, Ulu Öndər Heydər Əliyev dövrünü Azərbaycanın müstəqil mətbuatı üçün ayrıca və xüsusi mərhələ kimi qiymətləndirmək olarmı?***

- Bu, birmənalı olaraq belədir. Çünki XXI əsrin əvvəllərində də mətbuat özünəməxsus şəkildə inkişaf edirdi. Bir neçə xatırlatmanı etmək yerinə düşərdi. Belə ki, 2000-ci ilin mart ayında Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə Tədbirlər Proqamı" təsdiq olundu. Bir sıra qəzetlərin borcları tamamilə silindi. 2003-cü ilin mart ayında isə media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Bütün bunlar, öz növbəsində, müstəqil mətbuat tariximizdə əlamətdar hadisələr idi. Həmin vaxtlardan etibarən ölkə mediasında ilk olaraq, məhz Heydər Əliyev jurnalistlərin dostu kimi qiymətləndirildi. Onun bir kəlamını xatırlatmaq istərdim: "Mən istəyirəm ki, jurnalistlərlə bizim dostluğumuz daimi olsun. Bilin, mən jurnalistləri daim sevmişəm".

Ümumiyyətlə, qeyd etmək istərdim ki, mən də bir jurnalist olaraq, Ümummilli Liderimizi bir sıra səfərlərində müşayiət edərkən, Onun jurnalistlərə olan qayğısını, diqqətini daim üzərimizdə hiss etmişəm. Kiçik bir haşiyə çıxaraq bir amili də xatırlatmaq istərdim. Heydər Əliyev bütün səfərlərində keçirdiyi yorucu, ağır və çətin görüşlərindən sonra daim, ilk olaraq Onu müşayiət edən jurnalistlərlə maraqlanırdı. Hətta mətbuat işçilərinin nə zaman nahar etmələri, dincələ bilib-bilməmələri barədə soruşurdu. Onun üzərimizdəki atalıq qayğısını izah etmək çox çətindir. Çünki bu qayğını yaşamaq, görmək lazım idi. O, həqiqətən də jurnalistlərin səmimi, dönməz dostu idi və belə olaraq da daim xatirələrimizdə yaşayacaq.

***- Bəhruz müəllim, bəs Azərbaycan mətbuatının hazırkı, müasir dövrünü necə xarakterizə edərdiniz, bu dövrü İlham Əliyevin uğurlu mərhələsi kimi təcəssüm etmək mümkündürmü?***

- Müsahibəmin əvvəlində milli mətbuatımızın inkişaf yolunu bir neçə mərhələyə bölərkən, nəticələr çıxararkən, əlbəttə ki, müasir mətbuatımızın yeni dövrünü ayrıca olaraq İlham Əliyev mərhələsi kimi dəyərləndirmək çox doğru olardı. Söz yox ki, bu gün mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, dövlət orqanları ilə mətbuat arasında səmərəli əməkdaşlığın inkişafı, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına daha münbit şərait yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövləti və cəmiyyəti qarşısında duran mühüm vəzifələrdir və Prezident İlham Əliyevin bu istiqamətdə imzaladığı bu sərəncamların özü Azərbaycanda mətbuata dövlət qayğısının daha bir parlaq təzahürü kimi dəyərləndirilməlidir.

Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə təsdiqləyir ki, mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da məhz ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasında əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Bütün bunları yüksək qiymətləndirən Azərbaycan mətbuatı Prezident İlham Əliyevi üçüncü dəfə "Jurnalistlərin dostu" elan etdi. "RUH" Jurnalistləri Müdafiə Komitəsi tərəfindən aparılan rəy sorğusunda Prezident İlham Əliyev ən yüksək səs çoxluğu ilə "Jurnalistlərin dostu" seçildi. Mükafatı qəbul edən Prezident İlham Əliyev ölkəmizdə mətbuatın inkişafı istiqamətində mühüm addımların atıldığını deyərək vurğulayıb ki, demokratik cəmiyyətin qurulması istiqamətində azad mətbuatın rolu danılmazdır. Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir.

*Ardı Səh. 11*

# Azərbaycanın milli mətbuatı böyük və şərəfli yol keçərək, bu gün daha nəhəng uğurlara imza atmaqdadır

*"SƏS" Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyevin yap.org.az-a müsahibəsi*

Əvvəli Səh.10

Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır. Prezident İlham Əliyevin mediaya diqqət və qayğısının nəticəsidir ki, jurnalist peşəsinin ictimai nüfuzu davamlı olaraq atır. Belə ki, jurnalistlərə fəxri adların verilməsi, obyektiv və qərəzsiz prinsiplər əsasında fəaliyyət göstərən media qurumlarının cəmiyyətin ictimai institutu kimi fəaliyyətinin təqdir edilməsi və yüksək səviyyədə qiymətləndirilməsi nəticə etibarilə jurnalist peşəsinin ictimai nüfuzunun artmasına gətirib çıxardı.

2016-cı il iyulun 21-də dövlətimizin başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrıldı. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər Sərəncama əsasən isə Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrıldı. 2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin Sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5 milyon manat ayrıldı. Jurnalistlərlə görüşü zamanı Prezident deyib: "Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər belə məsələ qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə artıq biz burada ikinci binanın açılışını qeyd edirik. Xatırlayıram, 4 il bundan əvvəl birinci binanın açılışında mən demişdim ki, yəqin gələcəkdə bu əraziyə "Jurnalistlər şəhərciyi" deyiləcək və bu, belə də oldu. Artıq bu gözəl yer "Jurnalistlər şəhərciyi"dir, burada üçüncü bina da tikiləcək. Əlbəttə ki, biz jurnalistlərin məişət problemlərinin həlli üçün gələcəkdə əlavə tədbirlər görəcəyik".

Bütün bunları nəzərə alarkən qənaətə gələ bilərik ki, dünyanın heç bir ölkəsində mətbuata bu səviyyədə diqqət və qayğı tendensiyasına rast gəlinmir. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin dediyi "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözü onun siyasi fəaliyyətini əsas qayəsidir.

***- Hazırda elektron və print media arasında sanki bir rəqabət tendensiyası mövcuddur. Sizcə print medianın mətbuatdakı rolu və yeri hansı səviyyədədir?***

- Qeyd edim ki, son 25-30 ildə Azərbaycan elektron informasiya vasitələrinin daha sürətli inkişafı ilə göz önündədir. Bu gün elektron informasiya vasitələri ilə ənənəvi media vasitələri - print media arasında güclü rəqabət gedir. Artıq Azərbaycanda demək olar hər mətbuat nümunəsinin elektron səhifəsi fəaliyyət göstərir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində ənənəvi medianın oxucuları azalır, əksinə onlar xəbərləri internet vasitəsilə əldə etməyə üstünlük verirlər. Lakin print medianın ənənələrinin qorunması da çox vacib bir faktordur. Əgər nəzərə alsaq ki, elektron mediadakı məlumatlar bir müddət sonra silinə, itə bilər və s. Ancaq qəzetçilik əsaslarına söykənən print media illərcə, hətta əsrlər boyu yaşaya bilir. Misal üçün, bu gün bizlər ötən əsrin əvvəllərində dərc edilmiş hər hansı bir yazı ilə bağlı maraqlanarsaq, onu kitabxanalardan əldə edə bilərik. Bu gün dünyanın bir sıra aparıcı dövlətlərində informasiya-kommunikasiya nə qədər tərəqqi etsə belə, həmin ölkələrdə print medianın qorunub-saxlanılması vacib amil olaraq həyata keçirilir. Əbəs deyil ki, hətta iki əsrdir ki, nəşr edilən qəzetlər belə, bu gün işıq üzü görməkdə, oxucularının qarşısına çıxmaqdadır. Bu baxımdan, qəzetçilik ənənəsinin bizdə, Azərbaycanda da qorunması, inkişaf etdirilməsi mütləq faktorlardandır. Söz yox ki, bu xüsusda Prezident İlham Əliyev qəzetlərə maliyyə yardımının ayrılması üçün daim öz göstərişlərini verir, KİVDF-nin elan etdiyi müsabiqələrdə qalib olan qəzetlər dövlətin bu yardımından maksimum qaydada yararlanır, gələcək iş prosesini müəyyənləşdirir, konsepsiyasını qurur. Bu faktın özü də deməyə əsas verir ki, Azərbaycanda qəzetçilik ənənələrinin qorunması dövlətin və dövlət rəhbərliyinin daimi diqqəti mərkəzindədir. Düşünürəm ki, print media bundan sonra hələ uzun illər öz uğurlu fəaliyyətini davam etdirəcək.

***- Azərbaycanda söz və ifadə azadlığının inkişafında mətbuatın rolu və yeri necədir, qarşıda milli mətbuatı hansı uğurlar gözləyir?***

- Son illər Azərbaycanda kompüter texnologiyalarının, eləcə də söz və fikir azadlığının inkişafı, dünyaya inteqrasiya və qloballaşma prosesinin sürətlənməsi cəmiyyətin bütün sahələrində olduğu kimi, mediada da yeni yanaşmalar ortaya qoydu. Uzun illər informasiya blokadalarının əsiri olmuş, dünyada baş verən hadisələrdən bir qədər uzaq olan ölkəmizdə hazırda media özünün uğurlu transformasiya mərhələsini yaşamaqdadır. Azərbaycanda da azad sözün ifadə vasitəsi olan internetin rolu artmaqdadır. Ölkəmizdə yeni media formalaşma prosesində olsa da, bloqlar, forumlar, xəbər portalları kifayət qədərdir.

Bu və bu kimi digər mühüm məsələlərin təhlilini apararkən əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev də Ümummilli Lider Heydər Əliyevin ölkədə azad mətbuatın inkişafı sahəsində müəyyən etdiyi siyasəti uğurla davam etdirir. Jurnalistlərlə səmimi münasibətlər, daim onlarla ünsiyyət qurması bu reallığın təzahürüdür. Mətbuatımızın qabaqcıl və mütərəqqi ənənələrə əsaslanmaqla, xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayan dövlətimizin başçısı, cənab Prezident İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın fundamental şərti hesab edir, bu şərtin əsaslarını mükəmməlliklə təhlilini aparır. O, bu barədə fikirlərini bölüşərkən vurğulayıb ki, Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin: "Azərbaycanda o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur".

Daha bir məqam isə budur ki, Azərbaycan mətbuatı üçün digər böyük hadisələrdən biri də jurnalistlər üçün yaşayış evlərinin tikintisidir. Bu isə mətbuat işçilərinin məişət problemlərinin də diqqətdə olduğunun göstəricisidir.

Bəli, məhz Prezident İlham Əliyev ölkəmizdə azad sözün hamisidir. Dövlətimizin başçısı bunu Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu tarixi, əbədi və uğurlu ənənələri davam etdirməklə, mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, azad medianın təmin edilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində atdığı addımlarla təsdiq edib. Odur ki, Azərbaycan mətbuatı da, Azərbaycan jurnalisti də, haqlı olaraq ölkə Prezidentini - cənab İlham Əliyevi özünün dostu hesab edir və bundan sonra da edəcək.

Son olaraq belə qənaətə gəlmək olar ki, Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə, mətbu ənənələrə malik olması demokratik milli jurnalistikanın gələcək inkişafı üçün möhkəm zəmin yaradıb. Bu gün ölkə mətbuatı ictimai-siyasi və mədəni həyatımızın inkişafında mühüm rol oynayaraq, bizi böyük və mübariz xalq olaraq dünyaya tanıdır. Söz yox ki, biz mətbuat işçiləri də öz vəzifəmizin öhdəsindən layiqincə gəlib, milli mətbuatımızı dövlətçilik konsepsiyası əsasında uğurlarımızı davam etdirəcəyik.

## Müdafiə Nazirliyi: "Nəcməddin Sadıkov hazırda xidmət yerindədir və vəzifələrini icra edir"

Son zamanlar sosial şəbəkələrdə Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun guya vəzifədən azad edilməsi və qardaşının Ermənistan ordusunda yüksək vəzifə tutması barədə yayılan xəbərlərə Müdafiə Nazirliyi münasibət bildirib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu xəbərlər yalandır, iftiradır və düşmən qüvvələrin təxribat məqsədilə yaydığı dezinformasiyadır. Təəssüf ki, son vaxtlar bu mövzuda xəbərlərin tez-tez sosial şəbəkələrdə yayılması və müzakirə edilməsi bunun qərəzli, düşmənçilik və cəmiyyətdə çaşqınlıq yaratmaq məqsədilə həyata keçirildiyini açıq-aydın göstərir. Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov hazırda xidmət yerindədir və vəzifələrini icra edir.

Nazirliyin mətbuat xidmətinin məlumatında, həmçinin qeyd olunub ki, general-polkovnik Nəcməddin Sadıkovun qardaşı keçən əsrin 80-ci illərinin əvvəlində vəfat edib. Belə bir həssas məqamlarda bu cür həqiqətə uyğun olmayan mövzuların müzakirə obyektinə çevrilməsi heç bir etik normalara sığmır. Mətbuat nümayəndələrini Müdafiə Nazirliyinin fəaliyyəti ilə bağlı xəbərləri yayarkən maksimum diqqətli olmağa və rəsmi mənbələrdən istifadə etməyə çağırırıq.

## Leyla Abdullayeva: 12 iyul hadisəsi Ermənistan tərəfindən törədilən hərbi təxribatdır

12 iyul hadisəsi Ermənistan tərəfindən törədilən hərbi təxribat, terror aktı, gücdən istifadə etmək cəhdidir. SİA-nın məlumatına görə, bunu Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bu gün keçirilən mətbuat konfransında deyib. L.Abdullayeva bildirib ki, Ermənistan tərəfindən başladılan bu hərbi təxribatla bağlı beynəlxalq ictimaiyyət də narahatlıq keçirdi. O bildirib ki, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, GUAM və digər beynəlxalq təşkilatlar Ermənistanın bu təxribatını qəti şəkildə pisləyən bəyanatlarla çıxış etdilər, onlar Ermənistanın Azərbaycanın mülki əhalisini atəşə tutmasını qəti şəkildə pislədilər. L.Abdullayeva vurğulayıb ki, beynəlxalq təşkilatlar Azərbaycanı birmənalı dəstəklədilər: "Ermənistanın yeni təxribat, gücdən istifadə etmək və yeni ərazilər əldə etmək cəhdi beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənilib".



## Ermənistana məxsus iki ədəd taktiki PUA məhv edilib

İyulun 21-i Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatları (PUA) vasitəsilə gecə saat 00.30 radələrində cəbhənin Ağdam rayonu istiqamətində, səhər saat 08.45 radələrində isə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib. Hərbi Hava Qüvvələrimizin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən hər iki düşmən PUA-sı dərhal aşkarlanaraq dəqiq atəşlə məhv edilib.



# Milli mətbuatımız: **tarix, ənənələr, müasir çağırışlar və trendlər**

*AZƏRTAC-n İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanovun yap.org.az-a müsahibəsi*



***Prezident İlham Əliyevin Sərəncamına əsasən Azərbaycan milli mətbuatının 145 illik yubileyi geniş qeyd olunur. Mətbuatımızın 145 illiyi həm də Xalq Cümhuriyyətinin yadigarı olan Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) 100 illik yubileyinə təsadüf edir. Müsahibimiz AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) vitse-prezidenti, ömrünün 45 ili mətbuatla bilavasitə bağlı olan Aslan Aslanovdur. Onunla söhbətə Prezidentin Sərəncamının əhəmiyyətindən, dövlətimizin başçısının mətbuata, jurnalistlərə diqqət və qayğısından başladıq.***

- Milli mətbuatımızın 145 illiyi dünyanı cənginə alan koronavirus pandemiyası? səbəbindən yaranmış gərgin dövrə təsadüf edir. Bu təhlükəli virusla mübarizə, pandemiyanın sosial-iqtisadi həyata təsirlərini azaltmaq, vəziyyətdən mümkün qədər az itkilərlə çıxmaq dövlət səviyyəsində böyük səylər, maliyyə resursları tələb edir. Bilirik ki, Azərbaycan Prezidenti vəziyyəti gecə-gündüz nəzarətdə saxlayır. Belə bir vaxtda mətbuatımızın yubileyinin dövlət səviyyəsində qeyd olunması ikiqat əlamətdardır, dövlətimizin başçısının mediaya diqqət və qayğısının bariz göstəricisidir. Yubiley münasibətilə silsilə tədbirlərin keçirilməsi, mətbuat işçilərinin mükafatlandırılması nəzərdə tutulur.

Sərəncamın mətninə nəzər salsaq görərik ki, Prezident İlham Əliyev mətbuatın cəmiyyət həyatında rolunu, jurnalistlərin xidmətlərini çox yüksək qiymətləndirir. Sənəddə mətbuatımızın keçdiyi inkişaf mərhələləri lakonik əksini tapıb. Məsələn, qeyd olunur ki, 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşüb. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr verib, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərib.

Sərəncamda qeyd olunduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoydu, müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrildi, istiqlal ideyalarının yayılmasında, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamağa başladı. Sonradan dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yarandı.

1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırıldı, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradıldı. Bu siyasəti davam etdirən və yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr isə milli mətbuatımızın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyması, vətəndaş cəmiyyəti quruculuğunda medianın rolunun yüksəlməsi ilə səciyyəvidir. Bu inkişaf jurnalistlərin indiki nəslinin gözü qarşısında baş verib.

***- Sərəncamda müasir dövrün çağırışlarına, KİV-in qarşısında duran vəzifələrə də toxunulur. Bu barədə nə düşünürsünüz?***

- Doğrudan da, bu sənəd biz mətbuat işçiləri üçün həm də yol xəritəsidir. Hazırda ölkəmizdə sistemli, inqilabi səciyyə daşıyan islahatlar həyata keçirilir, şəffaflığa və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyalar tətbiq olunur, ictimai nəzarət və siyasi dialoq mühiti genişləndirilir. Belə bir taleyüklü məqamda müstəqil, fəaliyyətini günün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan mediaya daha çox tələbat duyulur. Dövlətimizin başçısı tövsiyə edir ki, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Prezident bunun yolunu da göstərir: modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi. Bu meyarlar informasiya əsri adlandırılan XXI yüzillikdə zamanla ayaqlaşmağın yeganə yolu, medianın inkişafının əsas istiqamətləridir.

***- Müasir mətbuatımızın formalaşması və inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Siz, necə deyərlər, "jurnalistika mətbəxində", hadisələrin mərkəzində olan media nümayəndəsi kimi həmin dövrü necə xatırlayırsınız?***

- Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlətdir. Demokratiyanın yolu isə söz, fikir və mətbuat azadlığından keçir. Odur ki, ötən əsrin 90-cı illərində mətbuatımızın qarşılaşdığı problemlər ulu öndərimiz Heydər Əliyevi düşündürməyə bilməzdi. Xüsusən senzura media üçün buxova çevrilmişdi. Ulu Öndər mətbuat sahəsində islahatlara başlamaq üçün münasib vaxt və şərait yaranmasını gözləyirdi. Bu, 1998-ci ildə baş verdi.

O dövrün siyasi-ictimai, hərbi mənzərəsinə nəzər salsaq, Heydər Əliyevin senzuranı niyə hakimiyyətə gəldikdən beş il sonra ləğv etdiyi aydın olar. Ermənilər bütün cəbhəboyu hücuma keçmişdilər, cənub bölgəsində separatçılıq hərəkatı baş qaldırmışdı, müəyyən xarici dairələr gizli və açıq təxribatlara əl atırdılar. Media işçiləri arasında səriştəsiz, bəzi hallarda isə bədxah qüvvələrin əlində alətə çevrilmiş insanlar az deyildi. Belə bir şəraitdə mətbuata hüdudsuz azadlıq verilməsi hələ kövrək olan müstəqilliyin əleyhinə işləyə bilərdi.

Heydər Əliyev dövlətçilik fəaliyyətinin təxminən 4-5 ilini ölkəni böhrandan çıxarmağa, daxili və xarici təhdidləri aradan qaldırmağa sərf etdi. Nəhayət ictimai-siyasi sabitliyi bərqərar edərək ölkə həyatının bütün sahələrində, o cümlədən mətbuat sahəsində islahatlara start verdi. Ulu Öndərin "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərmanının cəmiyyətdə necə güclü reaksiya doğurduğunu yaxşı xatırlayıram. Bəziləri senzuranın ləğvini radikal qərar hesab edir, təşviş keçirirdilər.

"Qlavlit"in ləğvindən istifadə edən müxalifət qəzetləri məmurlara hücuma keçdilər. Tənqid təhqirlə qarışdırılırdı. Nəticədə mətbuat-məmur münasibətləri gərginləşdi, məhkəmə çəkişmələri başladı. Təbii ki, Heydər Əliyev keçid dövrünün doğura biləcəyi problemləri əvvəlcədən görür və bunun labüd olduğunu bilirdi. Yadımdadır, müşavirələrin birində məmurlara müraciətlə deyirdi: Görürsünüz, məndən də yazırlar. Amma mən heç kimi məhkəməyə vermirəm.

Senzuranın ləğvinin doğurduğu ajiotaj tədricən ötüb keçdi, münasibətlər zamanın axarında yoluna düşdü.

Bundan bir müddət sonra institusional islahatlar başladı. Mətbuat və İnformasiya Nazirliyi ləğv olundu, "Kütləvi informasiya vasitələri haqqında" Qanuna prinsipial dəyişikliklər edildi. Mətbu nəşrlərin dövlət qeydiyyatı ilə bağlı icazə aradan qaldırıldı. Nəhayət 2003-cü ildə Mətbuat Şurasının yaradılması ilə mətbuatın özünütənzimləmə metodu tətbiq olundu və beləliklə, cəmiyyət-media münasibətləri tədricən normallaşmağa başladı.

***- Aslan müəllim, bəs 2003-cü ildən sonrakı dövr medianın inkişafı, jurnalistlərə diqqət və qayğı baxımından hansı yeniliklərlə xarakterikdir?***

- Bir qədər əvvəl qeyd etdim, Ulu Öndərimiz müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 ilin çoxunu keçmiş quruluşun və iqtidarın ağır mirası ilə mübarizəyə, dərin siyasi, sosial-iqtisadi böhranın aradan qaldırılmasına, milli dövlətçiliyin əsaslarının formalaşdırılmasına sərf etməli oldu. Sonda Azərbaycanı geniş inkişaf yoluna çıxardı.

Bugünkü Azərbaycan 17 il əvvəlki Azərbaycandan inanılmaz dərəcədə fərqlidir. 2003-ci ildən başlayaraq öz praqmatik, uzaq hədəflərə hesablanmış siyasəti ilə ölkəmizin bütün sahələrdə dinamik inkişafını təmin edən Prezident İlham Əliyev söz və mətbuat azadlığının genişləndirilməsi istiqamətində də davamlı, misilsiz addımlar atır. Dünyanın heç bir yerində dövlət mətbuata Azərbaycanda olduğu qədər yardım etmir. Yaxud Azərbaycandan başqa elə bir ölkə varmı ki, jurnalistlərə pulsuz ev tikib paylasın?

Dünya miqyasında analoqu olmayan dəstək və qayğı KİV-in iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılmasında, vətəndaş cəmiyyəti quruculuğunda medianın rolunun gücləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Buyurun baxın, özünü "hamıdan demokratik" hesab edən Qərb də baxsın: bu gün Azərbaycanda KİV-in - informasiya agentliklərinin, qəzet və jurnalların, televiziya və radioların ümumi sayı 5 mini, internet portallarının sayı 20 mini ötür. Əhalinin 80 faizi internet, 3 milyondan çoxu isə sosial şəbəkə istifadəçisidir.

Söz və mətbuat azadlığının başqa hansısa ölçüsü, meyarı varmı? Məncə, yoxdur. Bilən varsa, qoy desin.

***- Milli mətbuat tariximizdə AZƏRTAC-ın öz yeri və rolu var. O, Azərbaycanın ilk informasiya agentliyidir. Yüz ildir ki, aramsız olaraq dövrün salnaməsini yazır. Tarixdən başlayaq: AZƏRTAC necə və hansı zərurətdən yarandı?***

- Yüz yaşlı agentliyin tarixinin dərin qatlarına enmək çox vaxt aparar. Bu tarix bir müsahibəyə sığışmaz. Maraqlananlar olsa, onlara aşağıdakı linklər bələdçilik edə bilər.https://azertag.az/xeber/AZARTAC_100_Bir_esrlik_yola_bes_-ferqli_zaman_noqtesinden_baxis-1423733;

https://azertag.az/xeber/AZARTAC___yuz_illik_serefli_yol-1413057

İlk milli informasiya agentliyinin yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin tarixi xidməti olmaqla, mətbuatımızın inkişafı istiqamətində atılan mütərəqqi addımlardan biridir. Təəssüf ki, AZƏRTAC müstəqil xəbər agentliyi kimi cəmi 58 gün fəaliyyət göstərə bildi - 1920-ci il martın 1-dən aprelin 28-dək. Lakin yaxşı mənada reallıq ondan ibarətdir ki, qalibiyyət və sarsıntıların, tənəzzül və tərəqqinin bir-birini əvəzlədiyi bir əsrlik yolun salnaməsini məhz AZƏRTAC yazıb və yazmaqda davam edir. İnternetin olmadığı uzaq və yaxın keçmişdə baş verənlər barədə onun yaydığı xəbərlər saralmış qəzet səhifələrində, müasir Azərbaycanın keçdiyi yol və qazandığı uğurlar isə agentliyin saytında arxivləşib.

Keçmiş SSRİ-nin tərkibində yaşadığımız 70 ili tarixdən silib ata bilmərik. Müstəqilliyimizi itirməyimizə, dövrün kəskin ziddiyyətlərinə baxmayaraq, AZƏRTAC-ın xəbər agentliyi kimi formalaşması, peşəkar kadr potensialının yaranması məhz həmin illərdə baş verdi. Bu haqda danışarkən dahi siyasətçi və dövlət xadimi Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illəri xüsusi qeyd etmək lazımdır. Ulu Öndərimiz hələ medianın indiki qədər inkişaf etmədiyi vaxtlarda mətbu sözün, informasiyanın səfərbəredici rolunu hamıdan yaxşı görürdü. Buna görə də mətbuata, jurnalistlərə fərqli münasibət bəsləyir, xüsusi həssaslıqla yanaşırdı.

Heydər Əliyevə qədər arxa planda qalan AZƏRTAC da həmin dövrdə istər respublika, istərsə də İttifaq miqyasında öncül mövqelərə çıxdı, SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəzə çevrildi. Agentliyin əməkdaşları müxbir briqadalarının tərkibində xarici ölkələrə gedir, hadisə yerindən xəbərlər hazırlayıb göndərirdilər. Ulu Öndərimizin şəxsi nüfuzu hesabına AZƏRTAC-ın texniki təchizatı ilə bağlı problemlər də tədricən həllini tapırdı. Müttəfiq respublikaların informasiya agentlikləri arasında Ukrinformdan sonra məhz AZƏRTAC kompüterlə təchiz edildi, öz maddi-texniki bazasına və yaradıcılıq potensialına görə SSRİ məkanında birincilər sırasına çıxdı.

Biz həm Ulu Öndərimizin, həm də Prezident İlham Əliyevin diqqətini, qayğısını həmişə hiss etmişik. Son 27 ildə böyük inkişaf yolu keçən AZƏRTAC ən müasir texnologiyalarla tam təmin olunub. Dövlətimizin başçısının Sərəncamına əsasən agentliyimiz üçün yeni bina tikilib və yaxın vaxtlarda kollektivimizin istifadəsinə veriləcək.

Hazırda agentliyimizin xaricdə 22 müxbir məntəqəsi fəaliyyət göstərir. Biz hər gün 8 dildə 600-650 informasiya hazırlayıb yayırıq. Materiallarımız, həmçinin dünyanın bir çox nüfuzlu, geniş izləyici auditoriyasına malik KİV-lərində yer alır. Bu, bizim son illərdə xarici həmkarlarımızla, beynəlxalq media qurumları ilə sıx əməkdaşlığımız sayəsində mümkün olub.

***- Yeri gəlmişkən, agentliyinizin beynəlxalq əlaqələri barədə bir qədər ətraflı məlumat verərdiniz. Bu istiqamətdə fəaliyyət necə başladı, hansı mərhələlərdən keçdiniz?***

- Bir dəfə Ulu Öndərimiz mənə dedi ki, AZƏRTAC beynəlxalq informasiya platformalarına çıxmalıdır, OANA-ya üzv olmalıdır. O vaxt bizdə hətta jurnalistlər arasında belə bir təşkilatın mövcudluğundan xəbərdar olanlar az idi. Heydər Əliyev isə nəinki bunu bilir, həm də bu təşkilata üzvlüyün vacibliyini dəyərləndirirdi. Biz 2004-cü ildə OANA-ya daxil olduq, 12 ildən sonra isə ona hətta rəhbərlik etdik.

Yəqin mənimlə razılaşarsınız ki, informasiyanın dünya siyasətində rolunun artdığı, sosial şəbəkələrin həyatımıza daxil olduğu bir vaxtda beynəlxalq media məkanında yer tutmaq heç də asan deyil. Bunun üçün davamlı iş aparmaq, ilk növbədə, etibarlı və dürüst xəbər qaynağı kimi tanınmaq, həmkarların inam və etimadını qazanmaq lazımdır.

*Ardı Səh. 13*

# Milli mətbuatımız: tarix, ənənələr, müasir çağırışlar və trendlər

*AZƏRTAC-n İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanovun yap.org.az-a müsahibəsi*

Əvvəli Səh.12

Son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşıq müqaviləsi imzalamışıq, 150-dək agentliklə informasiya mübadiləsi aparırıq. Onların arasında bütün qitələrdən olan aparıcı agentliklər, məsələn, TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), İRNA (İran), ANSA (İtaliya), Kyodo (Yaponiya), Yonhap (Koreya Respublikası), TELAM (Argentina), SPA (Səudiyyə Ərəbistanı), Ukrinform (Ukrayna), BELTA (Belarus), Kazinform (Qazaxıstan) və digər nüfuzlu xəbər yayımçıları var. Biz, həmçinin Dünya Xəbər Agentlikləri Konqresi Şurası və Avropa Xəbər Agentlikləri Alyansı (EANA) çərçivəsində Associated Press, Reuters, Press Association, DPA agentlikləri ilə sıx əməkdaşlıq edirik.

2004-cü ildə OANA-ya, 2008-ci ildə EANA-ya üzv qəbul edilən AZƏRTAC, eyni zamanda, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli Xəbər Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. Biz bütün beynəlxalq və regional media qurumlarında fəal təmsil olunmağa çalışırıq. Məsələn, təkcə pandemiya dövründə EANA-nın üç vebinarında iştirak edərək öz təcrübəmizi avropalı həmkarlarımızla bölüşmüş, fikir mübadiləsi aparmışıq.

Agentliyin həyatında ən əlamətdar hadisələrdən biri dörd il əvvəl baş verdi. 2016-cı ildə Prezident İlham Əliyevin himayəsi, birinci xanım Mehriban Əliyevanın dəstəyi, Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakı eyni vaxtda iki mötəbər beynəlxalq təşkilatın əsas forumlarına - Dünya Xəbər Agentliklərinin V Konqresinə, OANA-nın XVI Baş Assambleyasına yüksək səviyyədə ev sahibliyi etdi, agentliyimiz bu qurumların rəhbəri seçildi. Bununla da Azərbaycanın və AZƏRTAC-ın adı dünya mətbuat tarixinə yazıldı. Mətbuat tariximizdə ilk dəfə idi ki, beş qitəni, 80 ölkəni və dünyanın 100-dən çox aparıcı xəbər agentliyini təmsil edən 200 media nümayəndəsi Bakıya toplaşmışdı. Prezident İlham Əliyevin konqresin açılışında geniş nitq söyləməsi, daha sonra iştirakçıların bir qrupunu qəbul etməsi bu qlobal forumlara xüsusi ahəng verdi, yaddaşlarda dərin iz qoydu.

Sözsüz ki, dünyanın ən böyük iki media qurumunun önəmli forumlarının Bakıda keçirilməsi müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisidir. AZƏRTAC-ın dünya informasiya məkanına inamla çıxması dinamik inkişaf edən Azərbaycana artan maraqla, ölkəmizin dünyada söz və nüfuz sahibinə çevrilməsi ilə şərtlənir. Xarizmatik lider olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan müasirləşir və modernləşir. Ölkəmizdə aparılan inqilabi islahatlar, sosial-iqtisadi inkişaf modelləri dünyanın diqqətini cəlb edir. Dünyanın bir çox informasiya nəhənglərinin Azərbaycanın milli agentliyi ilə əməkdaşlığa artan marağı təbii ki, ölkəmizin bu və digər uğurlarından qaynaqlanır. Məsələn, Çinin ingilisdilli "China Daily" qəzetini götürək. Ümumilikdə, 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" son bir neçə ayda öz saytında AZƏRTAC-ın iki böyük həcmli analitik məqaləsini yayıb. Beləliklə, Yer kürəsində milyonlarla insan Prezident İlham Əliyevin yürütdüyü siyasət, ölkəmizdə həyata keçirilən islahatlar barədə ilk mənbədən ətraflı məlumat əldə edib.

Bu barədə söhbətə bir faktla yekun vurmaq istərdim: ötən il AZƏRTAC-ın üzv olduğu beynəlxalq və regional media qurumlarının, tərəfdaşlıq etdiyi milli informasiya agentliklərinin saytlarında Azərbaycan həqiqətlərinə, ölkə həyatının bütün sahələrində qazanılan uğurlara, yeniliklərə dair 15 minə yaxın xəbəri, videosu və fotosu yayılıb.

***- Siz Ulu Öndərimizin xarici səfərlərini işıqlandıran media qrupunda işləmisiniz. Heydər Əliyevin agentliyinizə, jurnalistlərə münasibətilə bağlı ən çox hansı məqamları qeyd etmək istərdiniz?***

- Bilirsiniz, mənim jurnalistlik fəaliyyətimin böyük hissəsi AZƏRTAC-la bağlıdır. Yüzillik yolun təxminən 30 ili gözümün önündə keçib. Odur ki, tam qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyev dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a üstünlük verir, ona etibar edirdi. Bunun təsdiqi kimi bir çoxlu qərarları, sərəncamları misal çəkə bilərəm. Amma hesab edirəm ki, həmin sənədlərdən təkcə biri bu barədə təsəvvür yaratmaq üçün kifayət edər. Ulu Öndər respublika rəhbərliyinə qayıdışından az sonra - 1995-ci il martın 3-də agentliyin yenidən təşkil edilməsi haqqında Fərman imzaladı. AZƏRTAC-a dövlət informasiya orqanı statusu verildi, yetərincə büdcə vəsaiti ayrıldı.

Mənə Ulu Öndərimizin 1993-cü il iyunun 11-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında xarici diplomatlarla keçirdiyi ilk görüşündən başlayaraq, dövlət və hökumət başçıları, yüksək səviyyəli nümayəndə heyətləri ilə, demək olar, bütün görüşlərini, xarici səfərlərini, apardığı danışıqları işıqlandırmaq xoşbəxtliyi nəsib olub. Ulu Öndər nə yazdığımla, necə yazdığımla şəxsən maraqlanır, istiqamət və tövsiyələr verirdi.

Onu da qeyd edim ki, Azərbaycan mətbuatında siyasi publisistika janrının əsasları 1993-cü ildən başlayaq Heydər Əliyevin hakimiyyəti illərində qoyuldu. Ulu Öndərimizin ən müxtəlif mövzulardakı çıxış və nitqləri fikrin ifadə tərzi, səlis və təmiz dili, aydın məntiqi baxımından siyasi publisistikanın bənzərsiz nümunələridir. Biz bitkin publisistik əsər təsiri bağışlayan bu çıxışları şifahi nitqdən yazılı mətnə çevirərək mətbuata, radio və televiziyaya göndərirdik. Ulu Öndər nitq və çıxışlarının mətbuat üçün hazırlanan mətnlərini şəxsən nəzərdən keçirir, redaktə xarakterli düzəlişlər edirdi. Yadımdadır, gecəyarısı zəng vurur, hansısa sözü, yaxud cümləni dəyişməyi tapşırırdı.

Xarici səfərlərdə Prezidenti müşayiət edən həmkarlarım da təsdiqləyərlər ki, Heydər Əliyev bizə jurnalistika dərsi, ustad dərsləri keçirdi: informasiyanı nədən başlamaq, əsas məqamı və faktı ikinci dərəcəlidən necə seçmək lazım gəldiyini səbirlə izah edirdi. Biz jurnalistikanın, xüsusən siyasi publisistikanın müasir standartlarını, dövlət başçısının fəaliyyətini lazımi səviyyədə işıqlandırmağın incəliklərini Heydər Əliyev məktəbindən beləcə zərrəzərrə öyrənirdik.

Ənənələr davam edir və müasir dövrdən irəli gələn yeni çalarlarla zənginləşdirilir. Agentliyimiz Prezident İlham Əliyevin çıxış və nitqlərini, görüşlərini, xarici ölkələrə və bölgələrə səfərlərini, apardığı danışıqları bütün təfərrüatı ilə işıqlandırır, miqyasından və həcmindən asılı olmayaraq, elə həmin gün oxucuya çatdırır. Bu, qeyd etdiyim kimi, AZƏRTAC-ın birbaşa funksiyasıdır və onun statusundan irəli gəlir.

***- Mətbuatımızın tarixinə nəzər salsaq görərik ki, hər dövrün öz çağırışları, trendləri olub. Sizcə, müasir dövrümüzdə KİV-in, jurnalistlərin qarşısında duran əsas vəzifələr nədən ibarətdir?***

- Azərbaycan 30 ilə yaxındır Ermənistanla müharibə vəziyyətindədir. Düşmən bizə qarşı həm də informasiya müharibəsi aparır. Erməni təbliğat maşınının var gücü ilə yalan tirajladığı belə bir taleyüklü vaxtda Azərbaycan və Dağlıq Qarabağ haqqında tarixi həqiqətlərin dünyaya çatdırılması milli mətbuatımızın bir nömrəli vəzifəsi olmalıdır. Biz bunun ən ideal nümunəsini Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı gördük. Azərbaycan Prezidenti İlham Əliyev tarixi faktlara və təkzibolunmaz arqumentlərə söykənərək Ermənistanın baş naziri Nikol Paşinyanın yalan və uydurmalarını, saxta erməni mifini darmadağın etdi.

Prezidentimiz diplomatlara, eləcə də biz jurnalistlərə, sözün yaxşı mənasında, dərs verdi. Öz şəxsi nümunəsi ilə göstərdi ki, informasiya savaşında qətiyyətli olmaq, təkzibedilməz arqumentlərə əsaslanmaqla müdafiə taktikasından hücum taktikasına keçmək zamanıdır. Bunun nə qədər vacib olduğunu düşmənin Tovuz rayonu istiqamətində son hərbi təxribatı zamanı bir daha gördük. Ermənilər yalan məlumatlar yayaraq təqsiri Azərbaycanın üstünə atırdılar. Həmin günlərdə agentliyimizin üzv olduğu beynəlxalq media təşkilatlarının saytları və əməkdaşlıq etdiyimiz dünya KİV-ləri (təxminən 50 ölkənin 100-dək informasiya resursu) AZƏRTAC-ın materiallarına istinadla düşmənin bu hərbi təxribatı barədə xəbərlər yaydı, dünya ictimaiyyətini əsl həqiqət barədə məlumatlandırdı.

Son hadisələrin fonunda diqqəti daha bir mühüm məqama yönəltmək istəyirəm. Sərhəddə düşmənlə ağır döyüşlər getdiyi bir vaxtda vətənpərvər insanlar Azərbaycan Ordusuna və Ali Baş Komandan İlham Əliyevə öz dəstəyini ifadə etmək üçün meydanlara çıxdı. Bu, xalq-iqtidar birliyini nümayiş etdirən qürurverici mənzərə idi. Lakin bir qrup təxribatçı bu nəcib, vətənpərvər addıma kölgə salmağa, qanunsuz hərəkətlərə cəhd göstərdi. Biz bir jurnalist və vətəndaş olaraq antimilli qüvvələrə qarşı prinsipial mövqe tutmalı, sözümüzü daha cəsarətlə deməliyik.

Birinci vitse-prezident Mehriban Əliyevanın son hadisələrlə bağlı xalqımıza müraciəti bu baxımdan xüsusilə səciyyəvidir. Mehriban xanım müraciətində vurğulayır ki, hər birimizin borcu Azərbaycanın mövqeyini həm döyüş meydanında, həm də kompüter arxasında müdafiə etməkdir. Bir an da olsun unutmamalıyıq ki, uzun illərdir yaşadığımız qarşıdurma şəraiti artıq bilavasitə hərbi əməliyyatlar bölgəsini deyil, eyni zamanda, informasiya məkanını əhatə edir. Sosial şəbəkələr dövründə informasiya müharibələrinin miqyası, onların hadisələrin gedişatına təsiri qarşıdurmanın nəticəsinə təsir edən olduqca mühüm amilə çevrilir. Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən "feyk"lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd - çaxnaşma, nifaq salmaq və daxili "cəbhə" yaratmaq, düşkünlük və məğlubiyyət əhval-ruhiyyəsini artırmaqdır.

Birinci vitse-prezidentin müraciətində toxunulan bu mühüm məqamlar bu gün KİV-in fəaliyyətində prioritet istiqamətlər olmalıdır. Unutmaq olmaz ki, yaşadığımız informasiya əsrində söz də bir silah, jurnalist də bir əsgərdir. Biz bu məsuliyyəti hamılıqla dərk etməliyik, milli maraqlarımızın müdafiəsində dayanmaq üçün maksimum səfərbər olmalıyıq.

Zamanın digər mühüm çağırışı multimedia və videoxəbər istehsalıdır. AZƏRTAC-da videoxəbər xidməti 2010-cu il aprelin 22-də Prezident İlham Əliyevin Sərəncamına əsasən yaradılıb. O vaxtdan 10 il keçib və videoformatın qlobal miqyasda trend olduğunu artıq hamı görür. AZƏRTAC regionda yeganə agentlikdir ki, 5 dildə (Azərbaycan, ingilis, rus, fransız və alman) videoxəbər yayır. Ölkəmizdə baş verən mühüm hadisələr, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın səfərləri, iştirak etdikləri tədbirlər, keçirdikləri görüşlər barədə videolar saytımızla yanaşı, "YouTube" kanallarımızda da yayılır. Videosaytımızda indiyədək minlərlə müsahibə və reportaj yerləşdirilib. Burada ölkə həyatının hər bir sahəsinə aid videomateriallar tapmaq mümkündür.

Müasir dövrdə sosial şəbəkələr və mobil texnologiyalar tandemi informasiya işinə çox güclü təsir göstərir. Xəbər agentliyi olaraq, bu iki texnoloji tendensiyanı diqqətdə saxlayırıq. Bütün veb-resurslarımızın əlçatan və istifadəçi üçün rahat olmasını təmin etmişik. Bunun nəticəsidir ki, son bir ildə mobil cihazlar vasitəsilə bizim informasiya resurslarına müraciət 50 faiz, videolara baxış isə 75 faiz artıb. "YouTube" kanallarımızda videoxəbərlərə baxışların 83 faizi mobil cihazların payına düşür. Agentliyimizin veb-resurslarında, sosial şəbəkələrdəki səhifələrində və üzvü olduğu beynəlxalq media təşkilatlarının portallarındakı xəbər, foto və videolarına müraciətlərin sayı 73 faiz yüksəlib.

***- Son olaraq, informasiya bazarında rəqabət, feyk xəbərlər problemi, jurnalist məsuliyyəti barədə fikir və mülahizələrinizi bölüşməyinizi xahiş edirik. AZƏRTAC-ın rəqabətqabiliyyətliliyi nə ilə şərtlənir?***

- İnformasiya güclü silahdır. O, müsbət mənada səfərbəredici təsirə, mənfi mənada dağıdıcı gücə malikdir. Məkrli niyyət güdən xəbər xalqları, dinləri, mədəniyyətləri üzüzə qoya, münaqişələr, qarşıdurmalar yarada bilər və yaradır. Təsadüfi deyil ki, feyk xəbərlər bu gün dünyanı narahat edən qlobal problemə çevrilib.

Mətbuat azadlığı, İKT-nin yaratdığı hədsiz imkanlar həyatımızda çox şeyi dəyişib. Amma informasiyanın yüz il əvvəl olduğu kimi, bu gün də dəyişməz meyarları var. Bu, xəbərin dürüstlüyü, obyektivliyi və qərəzsizliyidir. İnformasiya bazarındakı kəskin rəqabətə baxmayaraq, AZƏRTAC bu prinsiplərə daim sadiqdir. Biz heç vaxt yoxlanılmamış, dəqiqləşdirilməmiş xəbər yaymırıq, sensasiya, yaxud süni reytinq arxasınca qaçmırıq. Əvəzində qazancımız oxucu inamı və etibarıdır.

İnternet xəbər məkanını qloballaşdırıb. İndi dünyanın istənilən nöqtəsində istənilən saytı izləmək mümkündür. Az qala səmadakı ulduzların sayı qədər olan saytlar arasında parlamaq, diqqət çəkmək heç də hər agentliyə nəsib olmur. AZƏRTAC bu baxımdan uğur qazansa da, bununla kifayətlənmir, Azərbaycan həqiqətlərini dünyaya daha çox çatdırmaq üçün səylərini daim artırır.

Yeniləşmək və yenə də yeniləşmək - bu gün üçün də, gələcək üçün də hədəfimiz budur.

Jurnalistin məsuliyyətinə gəlincə, ətrafda yalanın, saxta informasiyanın miqdarı artdıqca, bu məsuliyyət hissi adekvat olaraq güclənməlidir. Jurnalist, əgər o başqa məqsədlər güdmürsə, yalanı həqiqi informasiyadan ayırmağı bacarmalıdır. KİV əməkdaşı müasir texnologiyalara mükəmməl yiyələnməli, informasiyanı istehlakçıya çatdırmağın müasir üsullarını incəliklərinə qədər bilməlidir. Jurnalistin dünya görüşü çox geniş olmalıdır. Məsələn, eyni bir KİV-in nümayəndəsi Prezidentin fəaliyyətini işıqlandırarkən bu gün metallurgiya zavodu, sabah kənd təsərrüfatı, birisi gün kosmos haqqında yazır. Buna görə də əziyyətə qatlaşıb dərhal müəyyən sahələr üzrə bekqraund etməlidir. O, bunu ən qısa müddətdə etməyi bacaran ekspert olmalıdır.

Fürsətdən istifadə edərək öz qələmi və sözü ilə xalqımıza, dövlətçiliyimizə, milli maraqlarımıza xidmət edən həmkarlarımızı peşə bayramı münasibətilə təbrik edir, fəaliyyətlərində uğurlar arzulayıram.

# “Milli Şura”nın təhqir şousunun serialları

*Qeybətxanada söyülməyən müxalifətçi qalmadı*




***Qeybətxana və əcinələr yuvası olan “Milli Şura”nın şou serialları hələ də davam edir. Bu dəfə müxalifətdə söyülməyən adam qalmadı, söyüşün biri isə bir qəpik! Təqdim olunan növbəti seriyasında Əli Kərimlinin blokada şousunu özləri növbəti dəfə ifşa etdilər. Təqdim olunan videoda şura üzvü Vidadi Mirkamal deyir: “Əli bəyi qoşum mən?”, AXCP rəyasət heyətinin üzvü Vahid Məhərrəmli isə: “Yox, qoşma, qoşma” deyir.***

Görüntülərdən aydın olur ki, budəfəki qurbanlar Turan İnformasiya Agentliyinin rəhbəri, jurnalist Mehman Əliyev və “REAL” partiyasının üzvü Natiq Cəfərlidir. Qənimət Zahidov deyir: “Mehman Əliyev İlqar Məmmədovun kopyasıdır”. Vidadi Mirkamal isə: “Mehman Əliyev mövqesiz adamdır”. Bu arada AXCP-nin “primadonnası” Gültəkin Hacıbəyli “meydana girir”: “Mehman Əliyev söhbətində Vidadi bəylə razıyam, mövqesiz adamdır. Amma tam İlqar Məmmədovun eynisi deyil hələ ki”. Hələ ki...

G.Hacıbəyli daha sonra deyir: “Natiq Cəfərli tərbiyəsiz, iyrənc, murdar, şərəfsiz, alçaq, ən pis sözlərə layiq adamdır”. Ardınca Vidadi Mirkamal, Vahid Məhərrəmli, Qənimət Zahidov da “Şərəfsiz və tərbiyəsiz adamdırlar” deyə, təsdiq edirlər.

Göründüyü kimi, artıq izaha ehtiyac yoxdur. Özləri bir daha açıq-aydın bildirirlər ki, “Milli Şura” tərbiyəsizlər, əxlaqsızlar, cinayətkarlar yuvasıdır, ən əsası isə, “tryapkadırlar”.

### Cümşüd Nuriyev: “Milli Şura”dakılar xalqı təhqir etməklə xalqın, dövlətin deyil, öz şəxsi maraqlarını hər şeydən üstün tutduqlarını bir daha ortaya qoydu”

Politoloq Cümşüd Nuriyevin fikrincə, “Milli Şura” üzvlərinin Azərbaycan xalqına münasibətdə sərgilədiyi bu çirkin mövqe həmin qüvvələrin antixalq mövqeyində durdurlarının əyani təsdiqidir: “Milli Şura”nın Koordinasiya Mərkəzindəki son video-müzakirələr onu göstərdi ki, bu qurum sözdə demokratiyadan dəm vursa da, reallıqda demokratik dəyərlərə hörmətlə yanaşmır: “Videogörüntülər göstərdi ki, “Milli Şura” adlanan qurum sadəcə olaraq öz cərgəsində olmayanlara böhtan atmaqla məşğuldur.

Proses təsdiqlədi ki, “MŞ” siyasi mübarizədən daha çox siyasi intriqalara üstünlük verir. Baxın, şuranın üzvü Gültəkin Hacıbəyli İsmayıl adlı birisinin cinsi oriyentasiyasını ortaya ataraq mühüm məsələ kimi qabardıb. Deməli, bu qurumu siyasi mübarizə yox, LGBT xarakterli insanlarla çəkişmələr daha çox maraqlandırır. Belədə cinsi azlıqları lağa qoymaq, insan ləyaqətini aşağılayan fikirlər səsləndirmək və Hitlerin onları qırıb qurtarmamasına təəssüflənməklə qurum üzvləri neonasizmi təbliğ ediblər. Hətta vəziyyət o həddə çatıb ki, “MŞ” alimləri təhqir etməkdən belə çəkinmir. “MŞ”-da baş verə bu acınacaqlı durum orada yeni-yeni istefalara gətirib çıxarıb. Belə ki, “Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyevin ardınca, Vətəndaş Həmrəyliyi Partiyası (VHP) Ali Məclisinin sədri Rafiq Manaflı da buradan istefa verdi”.

Politoloq “Milli Şura”nın son video-müzakirələrində Azərbaycan xalqının bu qurum tərəfindən aşağılanması da əksini tapdı: “Gültəkin Hacıbəyli və Vidadi Mirkamalın mövqeyində bu, özünü daha aydın göstərdi. Onların buna nə haqqı var. Bu çirkin mövqe həmin qüvvələrin antixalq mövqeyində durdurlarının əyani təsdiqidir. “Milli Şura” üzvlərinin bu eybəcər hərəkəti əslində, aqoniyadan doğan bir haldır. Qurum üzvləri çox çalışdı ki, xalqı təxribata yönəltsin. Bu alınmadığından indi də keçiblər təhqirə. Xalqı təhqir nədir, heç tənqid etməyə onların nəinki ixtiyarı, mənəvi haqları belə yoxdur. 1992-ci ildə hakimiyyətə yiyələnmək üçün bir sıra torpaqlarımızı verdilər. 1992-ci ildə hakimiyyətə gəlməklə onlar Azərbaycanı növbəti bəlalara sürüklədilər, Kəlbəcəri verdilər. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra ona qarşı mübarizədə də həmin çirkin metoddan istifadə edərək bu qüvvələr 6 rayonu təhvil verdilər. İnsanda gərək abır-həya olsun. Milləti təhqir etmək deyil, ona hörmət etmək lazımdır. “Milli Şura”da toplananlarda isə bu keyfiyyətlər yoxdur. Onlar yalnız bir məqsədə qulluq edirlər, bu əməl də millətə pislik etməkdən ibarətdir. Belə də sözügedən qüvvələr təəssüf ki, indi də həmin çirkin siyasətlərini davam etdirirlər. Bu azmış kimi, indi də milləti təhqir etməyə başlayıblar. Onlar bir dəstə üzdəniraqların ümidinə qalıblar. Bu üzdəniraqlar halbuki onları təbliğ edənlər idi. Yeganə ümid yerləri onlar idi. İndi isə “MŞ”-da oturanlar onları da söyməyə başladılar ki, guya bu yolla cəmiyyətdə hörmət qazanacaqdılar. Amma proses göstərdi ki, belə hərəkətlərilə “Milli Şura” üzvləri olan-qalan nüfuzlarını da itirdilər. Onsuz da bu dar düşüncəli şəxslərin həmin hərəkətə gedəcəkləri gözlənilirdi. Hadisələrin gedişi də göstərdi ki, bu məsələdə haqlıyıq”.

C.Nuriyev onu da bildirib ki, bu qüvvələr xaricdən qrant alır və ona görə də xarici ölkələrdəki Azərbaycanı sevməyən qüvvələrin çaldığına oynayırlar: “Radikal müxalifətin biznesi də xarici mühacir alveri üzərində qurulub. Çöküş olanda bu qüvvələr həmişə aqoniyada olur. “Milli Şura” da artıq aqoniyadadır. Kim onlar barəsində bir söz deyir, dərhal trollarını ortaya atıb, söyüş, əxlaqsızlıq, tərbiyyəsizlik, mədəniyyətsizliyi yayırlar. Bütün bu çirkin keyfiyyətlər “Milli Şura”da toplanıb”.

### Elşən Musayev: “Məclis sanki Gültəkini güldürmək, onu əyləndirmək, adamın dilindən bir söz alıb ortaya yeni qafiyə çıxarmaq üçün düzənlənib”

Demokratik Maarifçilik Partiyasının (DMP) sədri, millət vəkili Elşən Musayev də “Milli Şura”nın öndə gedənlərinin iştirakı ilə keçirilən “zoom konfrans”ında baş verənləri tənqid edib. Bildirib ki, videokonfransda iştirak edən nanəciblər öz davranışları və danışıqları ilə iyrənc bir mənzərə ortaya qoyublar: “Məclis sanki Gültəkini güldürmək, onu əyləndirmək, adamın dilindən bir söz alıb ortaya yeni qafiyə çıxarmaq üçün düzənlənib. Dövləti idarə etmək istəyənlər söyüşlə dialoq qururlar, bir-birinə guya ərk edərək “yaramaz” deyirlər, inəklə buğanın fərqindən danışırlar. Budur onların səviyyəsi. Yazı boyunca çox düşündüm ki, bu tərbiyəsizlərin cavabını necə verim. Yekunda tapdım. Nə özü ilə işim olacaq, nə ətrafı ilə. Ən yaralı və kövrək yerindən vuracam bəyi: “Tryapka” - səni bu qoca yaşında bığ çıxarmağa məcbur edəndir”.

Göründüyü kimi, düz söz üçün məsafənin uzaq və yaxın olması



önəmli deyil. Əsas odur ki, düz sözü deyə biləsən. Hələki müxalif düşərgədə haqq sözü deyən və təbii ki, eşidən də yoxdur. Çünki onların düz söz demək niyyətləri də yoxdur, sadəcə olaraq, insanları qarşıdurmaya, təxribata, Vətənə xəyanətə çağırırlar.

### Xəyanətkar xəyanətkarın yanında

Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Bu məntiqlə yanaşsaq aydın olur ki, bu gün müxalifət illərdi ki, eyni mühitdə qalıblar. Bu o müxalifətdir ki, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bu koronavirusdan da güclü virusdur ki, bunun qarşısını almaq sadəcə mümkün deyil. Necə ki, bu gün AXCP sədri Əli Kərimli və “Milli Şura” sədri Cəmil Həsənli bu gün bir-birilərinə “tərif” deyir, az keçməmiş başlayırlar quyu qazmağa. Bu da təəccüb doğurmur, çünki xəyanətkar xəyanətkarın yanında olar. Çünki, sənin kimi Əli Kərimli də xəyanət, qisaslar, intriqalar toplusudur. AXCP sədri Əli Kərimli və onun “banditos” dəstəsi Vətəndən, millətdən və demokratiyadan çox danışsalar da, həmişə sözləri əməllərinə zidd olub.

Bu gün sosial şəbəkələrdə qoca “prfessor” deyir ki, hökümət hesabat versin. İlk öncə tərbbiyəsizlər, əclaqsızlar yuvasının “Milli Şura” deyilən bir çamur özünü nə hesab edir?

### “Beşinci kolon”la bu işi bitirməliyik”

Ancaq ölkə Prezidenti xalqa hesabat verərək sizin iç üzünüzü aydın şəkildə demək istərdik. İyulun 15-də prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası zamanı dövlət başçımız konkret tapşırıq verdi ki, “beşinci kolon”la bu işi bitirməliyik.

Prezident Əliyev Azərbaycanın ərazilərinin ermənilərin nəzarətinə keçməsini Azərbaycan Xalq Cəbhəsinin 1990-cı illərdəki fəaliyyəti ilə əlaqələndirib: “Torpaqların itirilməsi bir daha demək istəyirəm ki, o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərc-mərclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər”.

Prezident bu il iyulun 14-də Azərbaycan Ordusunu dəstəkləyən aksiya zamanı bir qrup insanın Milli Məclisin binasına daxil olmasında da AXCP-nin əli olduğunu deyərək bildirmişdi ki, bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar: “Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz. Dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır”.

Dövlət başçısı bir daha vurğulayıb ki, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil edirlər: “Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır”.

Dövlət başçısı “Milli Şura”nı da ittiham edərək bildirib ki, onların arasına bu ünsürlər - Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib: “Onların məqsədi nə idi? Yenəmi Azərbaycanı qaranlığa qərq etmək, yenəmi vəziyyəti gərginləşdirmək? Yenə də ermənilər bundan istifadə etsinlər? Onların məqsədi budur. Xalq Cəbhəsinin, o çirkin antimilli şuranın məqsədi budur”.

### Ağasif Şakiroğludan “Milli Şura” və “AXCP”-ə: “Siyasi fəaliyyətini söyüş, təhqir və şantaj üzərində qurmuş bu tryapkalar...”

“Gələcək Azərbaycan Partiyasının” sədri Ağasif Şakiroğlu sosial hesabından “Milli Şura” və “AXCP”ni sərt tənqid edərək bildirib ki, Əli Karimli, Cəmil Həsənli və ətrafında toplanmış bir qrup marginal küçə uşaqları yenə də öz əxlaqsızlıqlarını nümayiş etdirirlər: “Total olaraq öz aləmlərində ənənəvi ağır təhqir və söyüş ritorikası ilə üzərimə “hücum” çəkərək mənim haqq bildiyim, doğru bildiyim düşüncələrimi ictimailəşdirməmdən qorxuya düşüblər. Amma unudurlar! Unudurlar ki, bu əxlaqsızlıqla çox uzağa gedə bilməzlər və bilməyəcəklərdə”.

Bəli, istər ölkə daxilindəki, istərsə də müxtəlif xarici ölkələrdə məskunlaşmış antimilli ünsürlər bilməlidirlər ki, gec-tez respublikamıza qarşı təxribatçı, yalançı-kamufulyajlı təbliğatı həqiqətlərin qarşısında tab gətirməyərək qısa müddətdə sabun köpüyü kimi dağılıb gedir və gedəcək də!. Vətən əxlaqından, milli mənlik şüurundan, məntiq və zəka gücündən məhrum olan, xalqa və milli dövlətçiliyin qəsdinə duran bu “ruhunu şeytana satan” xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar.

**Rəfiqə HÜSEYNOVA**

# Azərbaycançılıq ideologiyasının əsasları

***Azərbaycançılıq ideologiyasının köklərini, təkamül mərhələlərini kifayət qədər sistemli bir şəkildə nəzərdən keçirərək belə bir düzgün nəticəyə gəlmək olar ki, azərbaycançılıq ideologiyası XIX əsrin sonu XX əsrin əvvəllərində ideologiyaya çevrilsə də, XX əsr boyu mürəkkəb bir təkamül yolu keçmişdir. Azərbaycan mütəfəkkirləri həmin ideologiyanın təkmilləşməsi, Azərbaycan cəmiyyətinin şüurunda möhkəm yer tutması üçün sadəcə çalışmamış, zəngin tarixi olan bir mücadilə vermişlər.***

Azərbaycançılıq ideologiyasının müasir ictimai, o cümlədən də ədəbi-estetik təfəkkürdəki mövqeyi göstərir ki, müasir dövrdə azərbaycançılıq ideologiyası “artıq müasir elmin nailiyyətlərinə əsaslanaraq, özünün elmi-nəzəri əsaslarını da təklif edir”. Məlum olduğu kimi, milli ideyalar təkcə tarixi kateqoriya deyil, həm də müasirdir, daimidir və gələcək nəsillərin sərvətidir. Milli şüur anlayışına gəldikdə isə onun başlıca əlamətləri aşağıdakı kimi səciyyələndirmək olar:

1. Milli mədəniyyət
2. Milli etik - əxlaqi normalar
3. İctimai birlik və həmrəylik
4. Dövlətçilik və onun atributlarına ehtiram
5. Vətənpərvərlik
6. Milli - mənəvi dəyərlərin bəşəri dəyərlərlə qovuşdurulması

Milli şüurun formalaşması üçün müstəqil dövlətçilik amili mühüm və vacib şərtdir. Milli şüur kimi formalaşan azərbaycançılıq anlayışı barədəki başlıca fikir və mülahizələr də məhz respublikamızda müstəqil dövlətçiliyin bərqərar olunduğu dövrdən sonra meydana gəlmişdir. Ancaq azərbaycançılıq anlayışı barədə əvvəllər də müəyyən fikir və mülahizələr irəli sürülmüşdür. Azərbaycançılıq ideyaları isə bilavasitə Azərbaycan cəmiyyətinin yarandığı dövrlərlə səsləşir. Bu o deməkdir ki, milli düşüncə formasındakı azərbaycançılıq ideyaları zaman - zaman yaranmışdır. Müstəqil dövlətçilik mərhələsində isə bu ideyalar yetkin səviyyəyə çataraq milli şüura çevrilir.

Milli azərbaycançılıq şüurunun yetkinləşməsi mərhələlərinin araşdırılması, təhlil olunması, onun daxili məzmununun öyrənilməsi, aydınlaşdırılması milli ideologiyanın mənimsənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ümummilli liderimiz Heydər Əliyev azərbaycançılıq anlayışını məzmun baxımından çox yüksək qiymətləndirir. Heydər Əliyev göstərir ki, “Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli - mənəvi dəyərlər, ümumbəşəri dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir”.

Göründüyü kimi, burada azərbaycançılıq milli dövlətçilik ideologiyasının özəyi, təməli, əsası kimi qiymətləndirilir. Eyni zamanda, dövlətçilik, milli dəyərlər, ümumibəşəri dəyərlər kimi qlobal məsələlər azərbaycançılığm tərkib hissələri kimi verilir.

Azərbaycançılıq anlayışı qlobal məsələləri əhatə etdiyi üçün əlbəttə ki, sosioloqlar, politoloqlar, tədqiqatçılar, xüsusən də ideyaca müxtəlif baxışlara malik olan şəxslər onu ayrı - ayrı prizmalardan şərh edə bilərlər. Lakin nəzərə aldıqda ki, azərbaycançılıq ictimai təfəkkürlə, ictimai şüurla, milli - mənəvi dəyərlərlə və ən əsası müstəqil dövlətçiliklə bağlı bir anlayışdır, onda bu anlayışın şəhr olunmasında ən düzgün istiqamət kimi Heydər Əliyev konsepsiyasına əsaslanılmalıdır.




Azərbaycançılıq anlayışı milli ideya anlayışı ilə və dövlətçiliklə bağlı olduğu üçündür ki, ona müxtəlif siyasi baxışlara malik olanlar müxtəlif istiqamətlərdən yanaşmağa meyl göstərirlər. Bəzən isə məsələ o dərəcədə dolaşdırılır ki, əslində, “azərbaycançılıq” anlayışının nə olması barədə konkret fikir yaratmaq mümkün olmur. Hətta, “Azərbaycançılıq nədir?” sualına hərə bir cür, hər kəs özü başa düşdüyü kimi cavab verir. Ramiz Mehdiyevin bu mənada M.Karpoviçdən gətirdiyi sitat tamamilə yerinə düşür. Politoloq M.Karpoviçə görə, “Rusiya ideyası” anlayışının nə demək olduğu müəllifin özünə qaranlıqdır. Ancaq müəllifin göstərdiyinə görə rus ideyalarının mövcudluğu inkar edilmir. Bunların məcmusu və qarşılıqlı təsiri rus ideyaları tarixinin məğzini təşkil edir”. Nəzərə aldıqda ki, M.Karpoviçin bu fikirləri sovet dövrünə aiddir, onda ona haqq qazandırmaq olar ki, həmin dövrdə “milli ideya” anlayışı barədə açıq bir fikir söyləmək imkanları yox idi. Müasir dövrdə “milli ideya” və “azərbaycançılıq” anlayışlarının bir - birindən fərqli təqdim olunması müxtəlif siyasi baxışların mövcudluğu ilə bağlıdır. Ancaq bu barədə nə qədər çox yazılsa, nə qədər daha artıq tədqiqat aparılsa məsələyə bir o qədər də aydınlıq gətirmək mümkün olacaqdır.

Müasir dövrdə azərbaycançılıq anlayışının doğru və düzgün başa düşülməsində mövcud olan əsas çətinliklərdən biri onun türkçülük anlayışı ilə qarışdırılmasından ibarətdir. Nizaməddin Şəmsizadəyə görə “Azərbaycan ideologiyası üç təməl üzərində bərqərar olur: türkçülük, islamçılıq və azərbaycançılıq. Bu üç təməl tarixi vəhdətdə olub, xalq bu vəhdəti həyat tərzində, düşüncəsində, arzusunda, nəğməsində, bayatısında - bir sözlə, ictimai və bədii təfəkküründə qoruyub saxlayıb, qırılmağa, ayrılmağa qoymayıb. Türkçülük Azərbaycan xalqının milli idealı - məfkurəsidir. Onun əsasında, öz soy kökünə, əslinə və bütün dünya türklərinə məhəbbət dayanır”. N.Şəmsizadə həmçinin, azərbaycançılığı özündə türkçülük, islamçılıq və Qərb dəyərlərini birləşdirən bir ideologiya adlandırır.

> Milli azərbaycançılıq şüurunun yetkinləşməsi mərhələlərinin araşdırılması, təhlil olunması, onun daxili məzmununun öyrənilməsi, aydınlaşdırılması milli ideologiyanın mənimsənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ümummilli liderimiz Heydər Əliyev azərbaycançılıq anlayışını məzmun baxımından çox yüksək qiymətləndirir. Heydər Əliyev göstərir ki, “Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli - mənəvi dəyərlər, ümumbəşəri dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir”.

***Vahid Ömərov f.ü.f.d. dos.***

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

22 iyul

Son səhifə


## Həbib Nurmaqomedov döyüşdən imtina etdi



**_Mütləq Döyüş Çempionatının (UFC) yüngül çəkidə kəmər sahibi Həbib Nurmaqomedov UFC-253 çempionatında iştirak etməyəcək. TASS xəbər verir ki, bu barədə idmançının meneceri Rizvan Maqomedov məlumat verib: "Həbib bu turnirdə çıxış etməyəcək". Bu turnir çərçivəsində Həbib ABŞ təmsilçisi Castin Geyci ilə mübarizə aparmalı idi. İyulun 3-də Həbib Nurmaqomedov atası və məşqçisi Abdulmanap Nurmaqomedov koronavirusdan dünyasını dəyişib._**

Qeyd edək ki, Castin Geyci yüngül çəkidə müvəqqəti çempionluq titulunun sahibidir. Əlavə edək ki, Abu Dabida keçiriləcək turnirə sentyabrın 19-u start veriləcək.

## Ronaldo: "Rekordlar həmişə vacibdir, amma..."



**_"Yuventus"un futbolçusu Kriştiano Ronaldo İtaliya A seriyasının 34-cü turunda "Latsio" üzərində 2:1 hesablı qələbəni şərh edib. Qol.az "Football İtalia"ya istinadən xəbər verir ki, sözügedən görüşdə dubla imza ataraq yeni rekordlar qıran portuqaliyalı hücumçu deyib: "Gözəl mövsüm keçirən komandaya qarşı çətin bir matç olacağını bilirdik. Bu qələbədən çox məmnunuq. Rekordlar? Rekordlar həmişə vacibdir, amma komandanın qələbəsi ilk növbədə gəlir. "Yuventus"un səviyyəsini bir daha göstərə bildik"._**

Qeyd edək ki, Ronaldo Premyer Liqa, La Liqa və A seriyasında 50 və daha çox qol vuran ilk futbolçu olub. Bundan başqa, 35 yaşlı hücumçu ən az 1994/1995 mövsümündən bəri A seriyasında 50-dən çox qol vuran ən sürətli oyunçu olub. O, 50 qol səddini 61 matça aşıb.

## Bir gündə hər kiloqram çəkiyə 30 millilitr su qəbul edilməlidir



**Həkimlərin dediyinə görə, orqanizmin 70, qanın 90 faizini su təşkil edir. Sudan az istifadə edilməsi ciddi sağlamlıq problemlərinə səbəb olur. Pandemiya dövründə gündə altı-yeddi dəfə su içilməsi immunitetə yaxşı təsir edir.**

Tərləyərkən bədəndəki su nisbəti 1 faiz azalır və nəticədə susuzluq əmələ gəlir. Bu zaman boğaz quruyur və su içmək istəyi yaranır. Orqanizmin gündəlik su tələbatı çəkiyə uyğun olaraq hesablanır. Belə ki, gün ərzində hər kiloqram çəkiyə 30 millilitr su qəbul edilməlidir. Onun miqdarı ilin fəsillərinə və qidaya görə dəyişə bilər.

Həkim-fitoterapevt Elnur Eldaroğlunun AZƏRTAC-a bildirdiyinə görə, orqanizmdə gedən gündəlik metobolik proseslər nəticəsində qalıq məhsullar, yəni toksinlər yalnız su vasitəsilə xaric olunur. Metobolik proseslər maye mühitdə faydalı maddələrin hüceyrəyə daxil olması və ziyanlı maddələrin xaric edilməsinə xidmət edir. Su təkcə daxili deyil, zahiri gözəllikdə də mühüm əhəmiyyət kəsb edir. Gün ərzində vaxtlı-vaxtında su qəbul edilməsi dərinin daha parlaq və təravətli olması üçün vacibdir.

Həkim-fitoterapevt deyib: "Su dəriyə nəmlik və elastiklik verir, kollagen sintezini aktivləşdirir. Suyu az qəbul edənlərdə dəri xəstəliklərinin əmələgəlmə riski çox olur və onlarda allergik və qabıqlanma ilə gedən dəri xəstəlikləri müşahidə edilir. Qəbul edilən suyun çox hissəsi günün birinci yarısında yeməkdən yarım saat əvvəl içilməlidir. Ürək-damar xəstələri, hipertoniya, qalxanvari vəz və böyrək çatışmazlığı olanları ödemlərə meyilli olurlar və ona görə onlar qəbul etdikləri suyun miqdarını nəzərə almalıdırlar".

Lakin suyu çox soyuq içmək olmaz. Soyuq su ağız boşluğunun selikli qişasına mənfi təsir göstərir. Eyni zamanda, həzm sisteminin funksiyası da pozulur, xüsusilə də yemək zamanı soyuq su içmək zərərlidir. Müsahibimizin dediyinə görə, yemək zamanı soyuq su içmək mədədə olan qidanın sürətlə qovulmasına və aclıq hissinin daha tez yaranmasına səbəb olur. Təbii ki, bu da öz növbəsində, piylənməyə aparıb çıxarır.

Suyun çox soyuq içilməsi ürək-damar sistemində də ciddi problemlər yaradır, həmçinin başağrısı, miqreni olanlar üçün də zərərlidir: "Otaq temperaturunda olan suyun içilməsi daha yaxşıdır. İsinmiş orqanizmin ona uyğun temperaturda su qəbul etməsi daha məqsədəuyğundur. Dişlərin sağlamlığını qorumaq üçün də soyuq su içməmək lazımdır, çünki bu zaman diş emalı zədələnir və karies yaranır", - deyə həkim-fitoterapevt bildirib.

## Bu futbolçu "Bavariya"dan ilinə 20 milyon avro istəyir

**_"Bavariya" futbolçusu David Alaba ilə müqaviləni yeniləmək üçün danışıqlar aparır. Qol.az "Sport 1"ə istinadən xəbər verir ki, avstriyalı oyunçunun atası və meneceri olan Pini Zahavi klub rəhbərliyi ilə müqavilənin şərtlərini müzakirə edib._**



P.Zahavi müzakirələr zamanı oğlunun dünyanın ən yaxşı mərkəz müdafiəçilərin biri olduğunu və buna uyğun maaş almasının vacibliyini söyləyib. 28 yaşlı müdafiəçinin Münhen təmsilçisindən illik 20 milyon avrodan çox maaş istədiyi vurğulanıb. Bildirilib ki, məhz bu şərt tərəflər arasında danışıqların müsbət yekunlaşmasına əngəl olur. Qeyd olunub ki, Alaba maaşı artırılacağı təqdirdə, karyerasını "Bavariya"da bitirməyə hazırdır.

## Məsut Özil "Fənərbaxça"ya rədd cavabı verdi



"Arsenal"ın futbolçusu Məsut Özil "Fənərbaxça"ya keçməkdən imtina edib. Nüfuzlu "Bild" nəşrinin yazdığına görə, İstanbul klubu 31 yaşlı yarımmüdafiəçiyə transfer təklifi göndərsə də, o, bunu müsbət cavablandırmayıb. Bildirilib ki, Özil müqaviləsinin müddəti başa çatana kimi - 2021-ci ilin iyununa qədər komandadan ayrılmağı düşünmür. Qeyd edək ki, M.Özil 2013-cü ildən London təmsilçisində oynayır.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**